

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 yanvar 2026-cı il, çərşənbə

№ 002 (7069)

Qiymәti 60 qәpik


# Hər bir azərbaycanlını birləşdirən müqəddəs dəyər - torpaq sevgisi

## İlham Əliyev: Hər an torpağımızı müdafiə etmək üçün güclü olmalıyıq!

Bax səh. 2

## Beynəlxalq hüquq pozulanda...

Bax səh. 2

## Bu düzəliş tamamilə aradan qaldırılmalıdır!

Bax səh. 3

## Sosial dövlət modelinin uğurları

Bax səh. 3

## Azərbaycan Çinin regiondakı prioritet tərəfdaşıdır

Bax səh. 4

## TDT-nin hərbi əməkdaşlığının gücləndirilməsi zərurətdir

Bax səh. 4

## Sadiq və etibarlı enerji təchizatçısı

Bax səh. 5



## Qlobal miqyasda artan nüfuz göstəricisi ...

### Omanla yeni əməkdaşlıq imkanları müzakirə olunub

Bax səh. 5

## "Yaşıl enerji"də yeni mərhələ

### Azərbaycanın müəllifi olduğu enerji həmrəyliyində yer alan ölkələrin sırası genişlənir

Bax səh. 6

## Suriya sərhədində gərginlik və Türkiyənin təhlükəsizlik strategiyası

Bax səh. 7



## Hindistanın balans oyunu: praqmatizm pərdəsi altında gizlənən geosiyasi riyakarlıq

Bax səh. 6

# Hər bir azərbaycanlını birləşdirən müqəddəs dəyər - torpaq sevgisi

## İlham Əliyev: Hər an torpağımızı müdafiə etmək üçün güclü olmalıyıq!

Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində Ona ünvanlanan "Torpağa münasibətiniz necədir? Sizdən ötrü torpaq nədir? sualını özünəməxsus şəkildə cavablandırıb. Jurnalist Mirşahin Ağayev zamanında bu sualı ulu öndər Heydər Əliyevə də ünvanladığını xatırladıb.

O dövrdə torpaqlarımızın 20 faizi işğal altında idi. Bu səbəbdən də Heydər Əliyevin qəlbində Vətən, torpaq sevgisi, doğma yerlərə geri qayıdacağımıza inam hədsiz dərəcədə böyük olsa da, Onun bu suala cavabında həm də bir yanğı, nisgil var idi. İndi isə vəziyyət fərqlidir. Azərbaycan öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam təmin edib. Təbii ki, son 200 illik tariximizdə ən böyük qələbəmizin əsas memarı olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin eyni suala cavabı tamam fərqli əhval-ruhiyyədə və məzmunda olub.



### İşğal altında qalmış torpaqlara qayıtmaq inamı

Azərbaycan xalqının mental dəyərlər sistemində torpaq sevgisi, yurd yerlərinə bağlılıq anlayışı möhkəm yer tutur və xüsusi məna daşıyır. Xalqımızın Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərində respublikamıza qarşı başladığı və təxminən otuz il ərzində davam etdirdiyi işğalçılıq siyasəti ilə əlaqədar yaşantıları bunu bütün cəhətləri ilə bir daha nümayiş etdirdi. O illərdə torpaqlarımızın işğal altına düşməsi harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı üçün ümummilli bir kədər idi. Bəli, danışırdıq, gündəlik qayğılarımızla məşğul olurduq, ancaq qəlbimizdəki Qarabağ ağrısı bir an da olsun bizləri tərk etmirdi, xəyallarımız ilğımın dalına düşərək Şuşaya, Laçına, Ağdama gedirdi. Hər birimizin içindən bir ağ atlı oğlan boy göstərirdi, xəyal qururduq ki, ilahi bir güc düşməni ən qəddar formada cəzalandıracaq və torpaqlarımız azadlığına qovuşacaq.

Belə kritik məqamlarda sıravi insanların gözü, qulağı liderlərdə olur, onlardan kömək, imdad gözlənilir. Eyni zamanda, qayıtmaq inamı liderlərin də varlığına, qəlbinə hakim kəsilmişdi. Xatırlayırıq, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq üçün mümkün olan hər şeyi edən ümummilli liderimiz Heydər Əliyev onlarla hər görüşündə təskinlik verərək bildirirdi ki, torpaqlarımızı mütləq işğaldan azad edəcəyik. "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır". Bunu Ulu Öndərimiz 1998-ci ilin Novruz bayramı günlərində deyib. Nə qədər gözəl, səmimi və duyğulu bir arzu idi!. Həm də hər bir azərbaycanlı məhz bu istəklə yaşayırdı. "Bilirsiniz, bizim hamımız üçün torpaq anlayışı, ilk növbədə, itirilmiş torpaqlarla bağlı idi. Çünki bu haqda sual işğal dövründə veriləndə hər birimiz itirilmiş torpaqlar haqqında düşünürdük və əminəm ki, cəmiyyətimizin əksəriyyəti inanırdı ki, biz bu torpaqlara qayıdacağıq", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Əlbəttə, illər ötdükcə, ümidlər də öləziyirdi, narahatçılığımız artırdı. Axı otuz il az zaman kəsiyi deyil. Biz daha nə qədər gözləməli idik? Burada lider amili və məsuliyyəti önə çıxır. Torpağa sevgi böyük ola bilər. Ancaq qarşında yağı düşmən olduğunu da unutmamalısan. O düşmən ki, arxasında böyük güclər dayanmışdı. Dövlətimizin başçısınınn bildirdiyi kimi, bizi reallıqla, yəni işğal faktı ilə barışmağa çağırdılar. Üç böyük dövlətin həmsədr olduğu və artıq tarixə qovuşmuş Minsk qrupu işğalçı ilə işğala məruz qalan tərəf arasında bərabərlik işarəsi qoyaraq işğal məhsulu olan keçmiş statuskvonu sonsuzluğadək uzatmağa çalışırdı. Beləliklə, sülh prosesinin iflasa uğradığı aydın idi. Azərbaycanın xoşbəxtliyi onda oldu ki, Prezident İlham Əliyev proseslərin gedişinə uyğun zəruri tədbirlər gördü. Bu xüsusda fikirlərini ifadə edən dövlətimizin başçısı bildirib: "İllər keçdikcə hərbi variantın labüd olması ilə bağlı da məndə heç bir şübhə qalmamışdı. Sadəcə olaraq, hazırlıq işləri lazımi səviyyədə görülməli idi".

Beləliklə, Prezident İlham Əliyev ərazi bütövlüyümüzün təmin olunmasının ən real yolunu ölkənin gücləndirilməsində görürdü. Onun uzaqgörənliklə qarşıya qoyduğu hədəflər də məhz Azərbaycanın potensialının artırılmasına və bu əsasda güclü ordu qurulmasına hesablanmışdı. Aparılan hazırlıqların nəticəsi olaraq düşmən cəmi 44 gün ərzində bütünlüklə kapitulyasiyaya məruz qaldı. "Vətən müharibəsi dövründə torpaq mənim üçün hər azad edilmiş kəndin timsalında, necə deyərlər, ortalığa çıxırdı və hər bir şəhidin şəhid olduğu yer torpaq idi mənim üçün. Hər gün itkilərlə bağlı məlumat alanda hansı hissləri keçirirdim, bunu sözlə demək mümkün deyil. Artıq hamı yaxşı bilir ki, bir neçə dəfə əməliyyatın istiqamətinin dəyişdirilməsi də mümkün ola biləcək böyük itkilərlə bağlı idi ki, bu itkilər olmasın və müharibənin 10 noyabrda dayandırılması da bununla bağlı idi. Müharibə dayanmasaydı, itkilər qat-qat çox olacaqdı. Hər dəfə bayrağımız bir kəndə, şəhərə sancılanda, mənim üçün Azərbaycan məhz o torpaq idi", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### Noyabrın 8-dən sonra Azərbaycan nəzarətdə olmayan torpaqlar idi

Vətən müharibəsində Azərbaycan ərazi bütövlüyünün təmin edilməsinə hərbi-siyasi yolla nail oldu. Ancaq suverenliyimiz tam təmin olunmamışdı, ərzilərimizin bir hissəsi yenə də separatçıların nəzarətində idi. O yerlərdə hələ də bayrağımız dalğalanmırdı. Müharibədən sonra respublikamız Ermənistana davamlı sülh üçün çağırışlar etsə də, qarşı tərəf hər dəfə danışıqlardan boyun qaçırır, bununla da kifayətlənməyərək suveren ərazilərimizdə silahlı təxribatlarını davam etdirirdi. 2023-cü ilin 19 sentyabr tarixində Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror aktları törətdilər. Belə ki, erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli - Füzuli - Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şəhid oldular və yaralandılar. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Nəticədə, Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralandı. Həmin gün Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak oldu.

Bir sözlə, ermənilərin təxribatlarının sayı-hesabı yox idi. Separatçılar açıq-aşkar ölkəmizə qarşı dövləti cinayətlərə əl atırdılar. Bununla barışa bilərdikmi? Bu sualın ən dolğun cavabını Prezident İlham Əliyev verib: "Nə deyim, noyabrın 8-dən sonra nəzarətdə olmayan torpaq mənim üçün Azərbaycan idi. O torpağı qaytarmaq necə? Bəziləri deyirdilər ki, heç kim imkan verməz. Bəziləri deyirdilər ki, bu qədər iş görmüsünüz də, bəsdir. Bəziləri deyirdilər ki, Sizin adınız tarixə yazılıb da, heç nə lazım deyil. Bir çox şeylər deyilib. Yəni pis niyyətlə yox. Sadəcə olaraq, bəzi insanlar belə düşünürdü. Mən də düşünə bilərdim ki, indi Şuşa bizdədir, müharibədə qalib gəlmişik, Ermənistanı məğlub etmişik, orada 2000 rus zabiti, əsgəri yerləşib, qalsın sonraya, bəziləri qalsın sonraya. Mən də elə düşünə bilərdim. Amma mənim üçün torpaq o vaxt o idi, Azərbaycan o idi, Xankəndi idi, Xocalı idi. O da artıq azad olundu".

### İndi qəlbimiz işğaldan azad olunmuş ərazilərlə döyünür

Vətən müharibəsindən, antiterror əməliyyatından sonra bizim üçün torpaq anlayışı işğaldan azad ollunmuş ərazilərlə assosasiya olunur. Bununla bağlı fikirlərini ifadə edən Prezident ilham Əliyev bildirib: "İndi, necə deyərlər, torpaq deyəndə, sözün düzü, mən daha çox torpağın keyfiyyətinə baxıram, harada daha münbit torpaq var, harada yaxşı əkin aparmaq olar. Qarabağa gedəndə baxıram, görürəm, orada qara torpaqdır. Deyirəm, nə gözəl məhsuldar torpaqdır. Artıq o torpaq anlayışı, yəni o zədəli, yaralı torpaq anlayışı yoxdur. Bu da yaxşı haldır. Çünki artıq sülh dövrüdür, quruculuq dövrüdür".

Bəli, indi bizi birləşdirən əsas ümummilli ideyalardan biri işğaldan azad edilmiş ərazilərin dirçəldilməsidir. Erməni vandalları otuz il ərzində görünməmiş vəhşiliklərə əl atıblar, şəhər və kəndlərimizi xarabazarlığa çeviriblər. Ancaq dövlətimizin imkanları, hər birimizin qəlbində Qarabağa olan sevgi o qədər böyükdür ki, biz doğma torpağımızı qarış-qarış Yer üzünün cənnətinə çevirəcəyik.

*Mübariz ABDULLAYEV*

# Beynəlxalq hüquq pozulanda...

## Güclü olmalıyıq və bunu etməyə çalışırıq!

Bu gün dünyada nizam pozulub, beynəlxalq hüquq normaları işləmir. Belə olan halda böyük dövlətlər digər xalqlara qarşı öz maraqları baxımından yanaşırlar. Bu da bəzi milli dövlətləri onlardan asılı edir ki, bunun da sonu heç də yaxşı olmur, əksinə milli dövlətlər sıradan çıxır. Biz bu faktı dünyanın ən böyük beynəlxalq təşkilatı olan BMT-nin nümunəsində də görürük. Belə ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan beş dövlət qərarların qəbulunda heç də beynəlxalq hüquqa deyil, öz maraqlarına istinad edirlər. Bunun xaricində isə BMT heç bir işə yaramır. Bu da ayrı-ayrı problemlərə yanaşmada ikili standartların tətbiq olunması ilə nəticələnir.

### Prezident: Bizim müharibəmiz ədalətli müharibə idi

Bu gün dünyada gedən proseslər göstərir ki, beynəlxalq hüquq anlayışı tamamilə sıradan çıxır. İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası da artıq iflasa uğrayıb. Hazırda beynəlxalq münasibətlər sistemində "kim güclüdür, o da haqlıdır prinsipi" işləyir. Dünyada mövcud olan ikili standartların, beynəlxalq hüquq normalarının işləməməsinin acı təcrübəsini Azərbaycan da yaşayıb. 1990-cı illərin əvvəlində Ermənistan xarici havadarlarının dəstəyi ilə torpaqlarımızın 20 faizini işğal edərkən dünya birliyi buna susdu. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan hərbi birləşmələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması haqqında 4 qətnamə qəbul etsə də, həmin qətnamələr 27 il kağız üzərində qaldı. Azərbaycan beynəlxalq birlikdən bu qətnamələrin icra edilməsi üçün Ermənistana qarşı addımlar atılmasını tələb etsə də, heç bir tədbir görülmədi. Halbuki, BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə saat ərzində icra olunub. Çünki həmin məsələlər böyük dövlətlərin maraqlarına uyğun idi. Yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev bu barədə deyib: "Torpaqlarımız işğal edildikdən sonra Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Lakin bu qətnamələr 27 il ərzində kağız üzərində qaldı və əgər biz öz torpaqlarımızı güc yolu ilə azad etməsəydik, onlar əbədi olaraq icrasız qalacaqdı. Bizim müharibəmiz ədalətli müharibə idi və biz öz ərazimizdə vuruşurduq. Biz heç bir başqa ölkəni işğal etməmişik, heç bir ölkəyə hücum etməmişik. Hərbi əməliyyatları BMT Nizamnaməsinin 51-ci maddəsinə, xüsusilə özünümüdafiə hüququna əsaslanaraq həyata keçirmişik".

Azərbaycan 27 il gözlədikdən sonra bu qətnamələri öz gücünə icra etməyə məcbur oldu. Belə ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsi və bir günlük antiterror tədbirləri ilə Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin edərək beynəlxalq hüququ bərpa etdi. Hansı ki, hər zaman beynəlxalq hüquqdan danışan bəzi böyük dövlətlər Azərbaycanın haqq işinə mane olmağa çalışsalar da, buna nail ola bilmədilər.

Azərbaycan artıq regionda yeni reallıqlar yaradıb. Eyni zamanda, dövlətimiz davamlı olaraq təhlükəsizlik tədbirləri görür, öz hərbi və iqtisadi gücünü artırır. Bütün bunlar müstəqil dövlətimizi xarici təhdidlərdən qorumaq üçün vacib amildir. Nəzərə alaq ki, hazırda dünyada güclü olanlar haqlı hesab olunurlar. Belə olan şəraitdə, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinə baxmayaraq, son beş ildə Silahlı Qüvvələrin potensialını gücləndirməkdə davam edib.

### Ötən 5 il ərzində...

Prezident İlham Əliyev sözügedən müsahibəsi zamanı bildirib ki, beş il ərzində biz ordu quruculuğu ilə fəal şəkildə məşğul olmuşuq və qazandığımız uğurlardan arxayınlaşmamışıq. Dövlət başçısının sözlərinə görə, əgər Azərbaycan Ordusunu bu gün və Vətən müharibəsində qalib gəldiyimiz həmin vaxtın silahları və döyüş qabiliyyəti ilə müqayisə etsək, hazırda biz bir neçə dəfə güclüyük: "Zənnimcə, bu, vəziyyəti qiymətləndirmək üçün kifayətdir. Neçə dəfə olduğunu deməyəcəyəm, amma bir neçə dəfə. Əlbəttə ki, bu, bizə öz gücümüzə inanmağa əsas verir".

Ümumiyyətlə, Azərbaycanın Silahlı Qüvvələri nəinki regionumuzda, o cümlədən dünyada ən güclü ordulardan biri sayılır. Torpaqlarımızın erməni işğalından azad edilməsinin ən mühüm səbəblərindən biri də ölkəmizdə uğurla inkişaf etdirilən ordu quruculuğu siyasətidir, bu sahədə davamlı islahatların aparılmasıdır və görülən işlərin effektivliyidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, səmərəli nəticələr əldə olunur. Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər ərzində bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Bunun qanunauyğun nəticəsi kimi, Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib.



Qeyd edək ki, Vətən müharibəsindən sonra Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkəmizin qüdrəti, iqtisadi imkanlarımız dünyanın ən güclü orduları siyahısında yer alan Azərbaycan Silahlı Qüvvələrinin yeni dövrün çağırışları dövründə də ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsi dövlət büdcəsinin əsas prioritet xərci olaraq qalmaqdadır. Uğurlu iqtisadi siyasətimiz bizə

### Yeni hərbi hissələr və gücləndirilən hərbi sənaye kompleksi

əsasında komplektləşdirilməsinə imkan verir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu Cənubi Qafqzın ən hazırlıqlı və müasir silahlı qüvvələri hesab olunur.

Onu da qeyd edək ki, postmüharibə imkan verir ki, ordu quruculuğuna, yeni silahların, yeni texnikaların alınmasına, yeni döyüş birləşmələrinin yaradılmasına lazımi dərəcədə dövlət vəsaiti ayrılsın.

44 günlük Vətən müharibəsi zamanı qazanılmış təcrübə çevik və sürətli manevrə malik, yüksək dağlıq və çətin şəraitdə döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirə biləcək yeni birləşmələrin yaradılması zərurətini ortaya qoydu. Məhz bu zərurət Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissələrinin yaradılmasını aktuallaşdırdı. Buna görə də Ali Baş Komandanın tapşırığı ilə ordumuzda yeni təyinatlı Komando hərbi hissələri yaradılıb. Komando hərbi hissələri yüksək fiziki və döyüş hazırlığına malik peşəkar hərbi qulluqçularla komplektləşdirilir. Ordumuzda Komando hərbi birlikləri Türkiyə Silahlı Qüvvələrinin təcrübəsi əsasında yaradılıb.

### "Biz kağız - BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq..."

Bundan əlavə, ölkəmizdə hərbi sənaye kompleksinin gücləndirilməsi istiqamətində də vacib addımlar atılır. Bu amil dövlətimizin gücünü və inkişafını göstərir, xarici mənbələrdən asılılığı da azaldır. Müdafiə sənayesində tətbiq olunan texnoloji yeniliklər ümumi intellektual potensialı gücləndirir, həm də minlərlə yeni iş yerinin yaradılmasını şərtləndirir. Bütün bunlarla yanaşı hərbi məhsullarımızı ixrac etmək və ixrac coğrafiyasını genişləndirmək imkanları yaranmaqdadır. Dövlət başçısının müsahibədə dediyi kimi, Azərbaycan keçən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal edib. Onun böyük hissəsi Azərbaycan Silahlı Qüvvələrinə verilib, bir hissəsi isə ixrac edilib. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir. "Beynəlxalq hüquq pozulanda güclü olan haqlıdır. Bu, bizim seçimimiz deyil. Biz hər zaman həqiqətə sadiq olmuşuq, həmçinin hər zaman ədalətə sadiq olmuşuq. Biz heç vaxt ədalətə uyğun olmayan heç bir şey etməmişik. Gördüyümüz bütün işlər tarixi, hüquqi və insani ədalətə əsaslanıb. Lakin dünya dəyişib. Biz kağız - BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq, torpaq üzərində yaşayırıq. Ona görə də, güclü olmalıyıq, biz də bunu etməyə çalışırıq. Mən hər bir ölkəyə bunu tövsiyə edirəm",-deyə Prezident İlham Əliyev vurğulayıb.

*Nardar BAYRAMLI*

# İlham Əliyev: Bu düzəliş tamamilə aradan qaldırılmalıdır!

## Masanı keçmişin bu qalıqlarından təmizləmək üçün...





Azərbaycanın son illərdə həyata keçirdiyi balanslı, praqmatik və çoxvektorlu xarici siyasət xətti beynəlxalq müstəvidə ölkəmizin mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Regional liderliyini real addımlarla təsdiqləyən Bakı həm təhlükəsizlik, həm enerji, həm də nəqliyyat-logistika sahələrində etibarlı tərəfdaş kimi qəbul olunur. Məhz bu kontekstdə Bakı-Vaşinqton münasibətlərində yeni, daha rasional və strateji yanaşmaya əsaslanan mərhələnin formalaşması diqqət çəkir. Uzun müddət müxtəlif siyasi təsirlərin və ikili standartların kölgəsində qalan ABŞ-Azərbaycan əlaqələri bu gün qarşılıqlı maraqlara söykənən əməkdaşlıq modeli müstəvisində inkişaf edir.

Azərbaycanın regional sabitliyin təminində oynadığı mühüm rol, qlobal enerji təhlükəsizliyinə verdiyi töhfə, terrorizmə və transmilli təhdidlərə qarşı beynəlxalq səviyyədə nümayiş etdirdiyi məsuliyyətli mövqe Vaşinqton - Bakı tərəfdaşlığına yeni bir rəng qatır. Bu reallıqlar fonunda artıq vaxtilə tamamilə fərqli geosiyasi şəraitdə qəbul edilmiş və mahiyyət etibarilə ədalətsiz xarakter daşıyan 907-ci düzəlişin mövcudluğu ABŞ-Azərbaycan münasibətlərinin ruhuna ziddir. Sözügedən düzəliş nə regiondakı indiki siyasi reallıqları, nə də Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini əks etdirir. Ona görə də Bakı-Vaşinqton əlaqələrinin yeni mərhələyə qədəm qoyduğu bir vaxtda 907-ci düzəlişin tam ləğvi zərurətə, hətta məntiqi tələbə çevrilib.

**"O vaxt Azərbaycanda hakimiyyətdə olanlar heç bilmirdilər ki..."**

Bu düzəliş ədalətsiz ruha malik olmaqla yanaşı, o dövrün Azərbaycan hakimiyyətinin səriştəsizliyinin, qeyri-peşəkarlığının bariz isbatı idi. Təsadüfən hakimiyyətə gəlmiş bu şəxslərin diplomatiyadan anlayışlarının olmaması ölkəmizi min bir fəlakətlə üz-üzə qoydu. Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bildirib ki, Azərbaycan diplomatiyasına rəhbərlik edən insanlar heç bir dildə danışa bilmirdilər, hətta Azərbaycan dilində düz-əməlli danışa bilmirdilər və heç bir təcrübəsi olmadan, yəni hansısa diplomatiyaya, siyasətə aid olmayan sahələrdən gətirilərək bu mühüm vəzifələrə təyin olundular: "Əgər Azərbaycan o vaxt öz haqq sözünü Amerika rəhbərliyinə çatdıra bilsəydi, əgər mübarizə aparsaydı, onda bəlkə də Konqresdə erməni lobbisi tərəfindən təşkil edilmiş bu məsələyə Amerika administrasiyası başqa prizmadan da baxa bilərdi. Hər halda Konqres müstəqil orqan olsa da, xarici siyasətlə bağlı olan məsələləri bir çox hallarda Prezident Administrasiyası ilə müzakirə edir. Məndə olan məlumata görə, o vaxt Azərbaycanda hakimiyyətdə olanlar heç bilmirdilər ki, gündəlikdə belə bir məsələ var, belə bir qanun qəbul olunacaq və Azərbaycana qarşı bu ədalətsiz düzəliş tətbiq ediləcək".

**Co Bayden 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərib...**

Vurğulandığı kimi, bu həm də böyük ədalətsizlik idi - Azərbaycanın işğala məruz qalan ölkə olmasına, Ermənistan dövləti tərəfindən Xocalı soyqırımının törədilməsinə, xalqımıza qarşı hərbi cinayətin həyata keçirilməsinə baxmayaraq ABŞ Konqresi məhz işğalçı ölkənin lehinə addım atdı. Erməni lobbisinin təsiri və təzyiqi ilə qəbul edilən bu düzəlişin "ərsəyə gəlməsində" canfəşanlışq edənlərin adları isə geniş ictimaiyyətə yaxından bəllidir. Hətta sonradan ABŞ-ın dövlət piramidasında ən yüksək zirvəyə belə çıxan şəxslər bu ədalətsizlikdə rol oynadı - bunun ən real misalı isə sonradan prezident olmuş Co Bayden idi.

Prezident İlham Əliyev müsahibəsində bildirib ki, Co Bayden 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərmişdir. "Təkcə bu fakt kifayətdir ki, hər kəs anlasın, nə üçün bizim, həm Obama-Bayden, həm Bayden-Blinken administrasiyası ilə münasibətlərimiz istənilən səviyyədə deyildi. Obama-Bayden administrasiyası ilə əlaqələr kifayət qədər məsafəli idi, Bayden-Blinken administrasiyası isə bizim əlaqələrimizi faktiki olaraq böhrana salmışdı", - deyən dövlət başçısı vurğulayıb ki, o vaxt bu düzəlişin təbii ki, böyük təsiri var idi: "Çünki Azərbaycan çox kasıb ölkə idi, xəzinə boş idi, valyuta ehtiyatlarımız yox idi. Bizi yardımdan məhrum etmək, əlbəttə ki, bizə böyük bir zərbə idi. Nəzərə alsaq ki, o vaxt minlərlə, on minlərlə köçkün artıq ağır şəraitdə yaşayırdı və bu, həm siyasi cəhətdən ədalətsiz idi, həm praktik nöqteyi-nəzərdən çox təsirli idi".

**Bizim qapımızı döyməyin...**

Azərbaycan daim bu haqsızlığın aradan qaldırılması istiqamətində səy göstərib - 2001-ci ildə isə ABŞ prezidenti 907-ci düzəlişin dayandırılması haqqında qərar imzaladı. Təbii ki, burada gənc Azərbaycan dövlətinin regiondakı strateji əhəmiyyəti, Azərbaycan hakimiyyətinin çevik xarici siyasət kursu böyük əhəmiyyət daşıyırdı. Bu düzəlişin tətbiqinin dayandırılması 23 il davam etdi - təəssüfləndirici haldır ki, ABŞ-ın Əfqanıstandakı missiyası başa çatdıqdan sonra, yəni, 2024-cü ildən bu ədalətsiz düzəliş yenidən tətbiq olunmağa başladı. Bu isə həm də həmin dövrdə hakimyyətdə olan Bayden-Blinken tandeminin ölkəmizə qarşı tutduğu qeyri-adekvat münasibətinin nəticə idi. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, Amerikanın Əfqanıstandakı missiyası başa çatandan sonra, - hamımız onu xatırlayırıq necə başa çatıb, bu, Bayden-Blinken administrasiyasının növbəti rəzaləti sayıla bilər, onların Əfqanıstandan belə xaotik qaçışı və öz yaxın müttəfiqlərini orada faktiki olaraq, taleyin ümidinə buraxması, - Bayden administrasiyası bu düzəlişin aradan qaldırılmasını dayandırdı: "Yəni artıq Azərbaycan onlara lazım deyildi, Əfqanıstandakı missiya başa çatmışdı və beləliklə, bu düzəliş yenidən tətbiq edilmişdi. Əlbəttə, bunun bizim iqtisadi inkişafımıza heç bir təsiri yoxdur və ola da bilməz. Ancaq bu, Bayden-Blinken administrasiyasının nə qədər naşükür və nankor olmasını bir daha göstərir. O vaxt administrasiyanın yüksəkvəzifəli şəxsləri ilə söhbət əsnasında mən demişdim ki, gün gələcək və biz sizə bir daha lazım olacağıq. Amma onda bizim qapımızı döyməyin. Əgər o administrasiya və onun nümayəndələri bu gün hakimiyyətdə qalsaydı, biz onların bir xahişini də yerinə yetirməyəcəkdik".

**Biz gözləyirik ki...**

Bakı-Vaşinqton münasibətlərində müşahidə olunan yeni və daha praqmatik əlaqələr tərəflər arasında yeni münasibətlər sistemi formalaşdırıb. Prezident İlham Əliyevin ABŞ-a səfəri, Prezdient Donald Tramp ilə görüşləri, eləcə də, ABŞ dövlət başçısının Azərbaycan Prezidentinə ünvanladığı çoxsaylı məktublar bunu deməyə əsas verir. Bu kontekstdə tərəflərin qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq xəttini ön plana çəkməsi dövlətlərarası münasibətlərdə mövcud olan kiçik mənfi effektlərin tədricən neytrallaşdırılmasına xidmət edə bilər. Ötən ilin avqustunda Vaşinqtonda keçirilən görüşlər, iki ölkə Prezidentinin Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunu imzalaması münasibətləri yeni bir mərhələyə daşıyır. Bu mənada keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin Tramp tərəfindən məhz Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıyır, ABŞ-n Azərbaycanla əlaqələrin inkişafına verdiyi önəmin təcəssümünü özündə ifadə edir. Düzəlişin ləğvi isə bütövlükdə regionun inkiaşfında yeni bir cığır açacaq. Prezident İlham Əliyev müsahibəsində qeyd edib ki, Tramp administrasiyasının hakimiyyətə gəlişi ilə vəziyyət tamamilə dəyişib: "İndi Amerika-Azərbaycan münasibətləri yeni səviyyəyə qalxmışdır və əlbəttə, biz gözləyirik ki, Konqres bu ədalətsiz, keçmişdən qalan, bu gün tamamilə absurd sayılan düzəlişi aradan qaldıracaq. Çünki nə o vaxt blokada var idi, nə bu gün blokada var. Əksinə, bu gün Azərbaycan ərazisindən Ermənistana müxtəlif yerlərdən yüklər gedir, yollar açıldı və hətta Azərbaycanın neft məhsulları Ermənistana ixrac edilir. Hansı blokadadan söhbət gedə bilər?! Əgər 907-ci düzəlişin formal səbəbi blokada idisə, bu yoxdur bu gün. Ona görə əlbəttə, biz gözləyirik ki, Tramp administrasiyası öz imkanlarından istifadə edərək Konqres üzvlərini, xüsusilə Respublikaçılar partiyasının üzvlərini inandıra biləcək ki, bu düzəliş tamamilə aradan qaldırılmalıdır və buna ümid etmək üçün bizim kifayət qədər səbəblərimiz var. Bu gün bu, yenə də simvolik xarakter daşısa da, necə deyərlər, masanı tamamilə keçmişin bu qalıqlarından təmizləmək üçün Konqres bunu birdəfəlik ləğv etməlidir".

Vurğulandığı kimi, Bakı regional sülhün, əməkdaşlığın və Qərblə Şərq arasında strateji körpünün əsas təminatçılarından birinə çevrilib - 907-ci düzəliş kimi selektiv və ədalətsiz yanaşmaların davam etdirilməsi isə günümüzün siyasi çağırışları ilə səsləşmir. Sözügedən düzəlişin ləğvi Bakı-Vaşinqton əlaqələrində yeni mərhələnin başlanğıcı olmaqla yanaşı, tərəflər arasında qarşılıqlı etimadın möhkəmlənməsinə və strateji əməkdaşlığın institusional əsaslar üzərində inkişafına mühüm töhfə verə bilər.

*Pərviz SADAYOĞLU*

# Sosial dövlət modelinin uğurları

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində ölkəmizdə təmin edilən uğurlu sosial dövlət modelinin əhəmiyyətindən bəhs edərək yürüdülən siyasətin ana xəttində hər bir vətəndaşın rifahının yaxşılaşdırılmasının dayandığını vurğuladı. Qeyd edildiyi kimi bu siyasət özünü əməli işlərdə göstərir. "Bu, sadəcə olaraq, şüar deyil. Bizim bütün siyasətimiz həm sosialyönümlüdür, həm də ki, investisiyayönümlüdür. Hər ikisi arasında çox həssas balans, tarazlıq olmalıdır. Əgər olmasa, onda heç bir ölkə uğur qazana bilməz".

**Əhatəli sosial islahatlar rifahı yaxşılaşdırıb**

Ötən dövrdə həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin edib, ölkəmizin beynəlxalq nüfuzu yüksəlib, dünyada strateji əhəmiyyəti artıb. Ölkədə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl genişmiqyaslı dövlət proqramları həyata keçirilib, yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı dövlət sosial yardımı genişləndirilib, aztəminatlı ailələrin təminatı daha da gücləndirilib.

Dövlət başçısının xatırlatdığı kimi son 20 ildə dayanıqlı sosial təminat daha da möhkəmlənib, insanların sosial həyatında müsbət meyillər güclənib. 2003-cü ildən ötən dövrdə ölkə üzrə minimum aylıq əməkhaqqı 44,4 dəfə artırılaraq 400, minimum aylıq pensiya 16 dəfə artırılaraq 320 manata çatıb. Orta aylıq əməkhaqqı 14,2 dəfə artaraq 77 manatdan 2025-ci ilin 1 sentyabr tarixinə 1093,8, orta aylıq pensiya 22,6 dəfə artaraq 539, yaşa görə orta aylıq pensiya 23,1 dəfə artaraq 574 manata yüksəlib.

Son yeddi il ərzində 5 sosial islahat paketi icra edilib və islahatlar 4 milyon nəfəri əhatə edib. Bu sosial proqramların maliyyə tutumu təqribən 8 milyard manata yaxındır. Təkcə keçən il 1,4 milyard büdcə vəsaiti həmin məqsədlər üçün xərclənib və maaş, pensiya və müavinətlərin artımı təmin edilib. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2,2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə endirilib.

**Məşğulluq tədbirləri azad ərazilərdə rifahı yaxşılaşdırır**



Sosial siyasətin ən mühüm prioritetlərindən biri davamlı məşğulluq tədbirləridir ki, son 20 ildə 2,5 milyondan çox yeni iş yeri yaradılıb. Özünüməşğulluq proqramının icrası sayəsində 100 mindən çox insan müxtəlif iş imkanları ilə əhatə olunub. Məşğulluq proqramı işsizliyin böyük hissəsini faktiki olaraq aradan qaldırır və bu insanlara verilən vasitələrlə onlar öz ailə büdcələrini təmin edə bilirlər.

Qarabağ və Şərqi Zəngəzurda da məşğulluq tədbirləri sosial siyasətin əsas hədəfi kimi diqqətdə saxlanılır. Bu ərazilərə köçürülən sakinlərin məşğulluğunun təminatı işləri 2025-ci ilin 9 ayında da davam etdirilib. Ümümilikdə, ötən dövrdə həmin sakinlərdən artıq 6,3 minə yaxın şəxsin məşğulluğu təmin edilib ki, bu da onlardan iqtisadi fəal olanların 92 faiz deməkdir. 513 sakin üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə biznesləri sahələri yaradılıb. 258 sakin üçün isə peşə kursları təşkil edilib.

**Şəhid ailələri və müharibə əlillərinə qayğı**

44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Ümumilikdə, postmüharibə dövründə şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və veteranlardan ibarət 250 min şəxs 500 mindən çox xidmətlə təmin olunub. Sosial dəstək paketi üzrə postmüharibə dövründə şəhid ailələri və müharibə iştirakçılarından ibarət 132 min şəxsə 400 min xidmət göstərilib, o cümlədən onlara 6900 mənzil və 567 avtomobil verilib. - 106 min şəxsə 120 min aylıq sosial ödəniş təyin edilib, 27,8 min şəxsin məşğulluğu təmin olunub, 25,5 min şəxsə birdəfəlik ödəniş verilib.

2025-ci ildə şəhid ailələri üçün Prezidentin aylıq təqaüdü artırılaraq 600 manatdan 700 manata, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü artırılaraq I dərəcə üzrə 500 manatdan 600 manata, II dərəcə üzrə 400 manatdan 500 manata, III dərəcə üzrə 330 manatdan 400 manata, əlilliyə görə müavinətlər müvafiq olaraq 270 manatdan 300 manata, 220 manatdan 250 manata, 150 manatdan 180 manata çatdırılıb.

**Büdcə xərclərinin 41 faizi sosialyönümlüdür**

Azərbaycan hökumətinin sosial niyyətini əks etdirən digər mühüm amil büdcə xərclərinin sosialyönümlülüyüdür. 2026-cı ildə dövlət büdcəsinin xərcləri 41,7 milyon manat nəzərdə tutulub ki, xərc portfelinin 17 milyard 145,5 milyon manatı və ya 41,1 faizi birbaşa sosialyönümlü maliyyə təminatıdır. Bu, 2025-ci illə müqayisədə 213,4 milyon manat və ya 1,3 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 2 milyard 492,8 milyon manat və ya 17 faiz çoxdur. 2022-ci illə müqayisədə isə sosialyönümlü xərclərin çəkisi 2026-cı ilə nəzərən 5,5 milyard manat və ya 48,1 faiz artıb. Sosialyönüml xərclərin strukturuna əməyin ödənişi fondu, ərzaq məhsullarının alınması, təqaüd və sosial müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının alınması, icbari tibbi sığorta üzrə xərclər və digər sosial dəstək tədbirləri aiddir.

Onu da qeyd edək ki, əhalinin gəlir əldə etmək imkanlarının və rifahının yaxşılaşması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin, xüsusilə də sosial cəhətdən həssas təbəqələrin sosial müdafiəsinin gücləndirilməsi və digər sosial tədbirlərin maliyyə təminatı üçün 2026-cı ilin dövlət büdcəsinin layihəsində 2 milyar 750,9 milyon manat vəsait nəzərdə tutulub. Yaşa, əlilliyə, ailə başçısını itirməyə və digər sosial müavinətlərin və müharibə əlillərinə, ümumi səbəbdən əlilliyi olan şəxslərə, müharibə veteranlarına, şəhid ailələrinə ödənilən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin maliyyələşdirilməsi üçün 2 milyard 144,7 milyon manat (2025-ci ilə nisbətən 201,8 milyon manat və ya 10,4 faiz çox), ünvanlı dövlət sosial yardımlarının verilməsi üçün 465 milyon manat, haqqı ödənilən ictimai işlərlə bağlı xərclər üçün 141,2 milyon manat vəsait proqnozlaşdırılıb.

**1 milyon 100 min nəfər pensiyaçının təqaüdü artırılacaq**

Yaxın günlərdə ölkədə pensiyaların artımı təmin ediləcək. Məlum olduğu kimi pensiyaların artımı orta aylıq əməkhaqqının illik tempinə uyğun indeksasiya olunur. 2025-cü ilin ötən 11 ayında ölkə üzrə orta aylıq əməkhaqqı 9,4 faiz artıb. İlin yekununda bu rəqəmin təxminən 10 faiz artcağı gözlənilir.. Bu isə ölkə üzrə orta aylıq pensiya məbləğinin hazırkı 540 manat məbləğindən 600 manata çatdırılmasına səbəb olacaq. Ümumilikdə, yanvar ayında 1 milyon 100 mindən çox vətəndaşın pensiyası artacaq. Həmçinin cari ilin ilk ayından etibarən, ehtiyac meyarının 300 manata çatıdırlması sayəsində ünvanlı sosial yardım almağa başlayacaq vətəndaşlarımızın sosial yardım məbləği də artacaq. İlkin qiymətləndirmələrə görə, 900 manat gəlirli 5 nəfərlik ailə, əvvəl aldığı təxminən 525 manat əvəzinə, yeni ehtiyac meyarının tətbiqi ilə orta hesabıa 600 manat yardım alacaq. Bu isə təbii ki, daha çox ehtiyaca malik olan ailələrin daha yaxından dəstəklənməsi deməkdir.

Bütün bu sistemli və ardıcıl tədbirlər sosial siyasətin dövlət siyasətin ayrılmaz hissəsi kimi daim prioritetliyinin təsdiq edir. İqtisadi və maliyyə imkanlarımızın artması sosial proqramların icrasının genişlənməsini təmin edəcək. İmkanlar böyüdükcə, ilk növbədə sosial məsələlərə diqqət yetiriləcək və maliyyə ayrılacaq.

*E.CƏFƏRLİ*

# Azərbaycan Çinin regiondakı prioritet tərəfdaşıdır





## İlham Əliyev: Əminəm ki, yaxın gələcəkdə həm yeni müqavilələrin, həm də artıq prosesdəki layihələrin həyata keçirilməsinin şahidi olacağıq

Azərbaycanın yürütdüyü praqmatik xarici siyasət son illər ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə, strateji tərəfdaşlarının sayının artmasına geniş imkan yaradıb. Bakı qlobal miqyasda fərqli güc mərkəzləri ilə qarşılıqlı hörmətə, bərabərhüquqlu əməkdaşlığa və milli maraqlara əsaslanan münasibətlər quraraq özünü etibarlı tərəfdaş kimi təsdiqləyib. Bu gün Azərbaycan həm Qərb, həm də Şərq istiqamətində uğurla əlaqələr inkişaf etdirən nadir ölkələrdən biri kimi çıxış edir.

Bu kontekstdə Bakı-Pekin münasibətləri xüsusi əhəmiyyət daşıyır. Çin Xalq Respublikası ilə əlaqələrin yüksək səviyyədə olması Azərbaycanın çoxvektorlu xarici siyasət kursunun mühüm göstəricisidir. İki ölkə arasında siyasi dialoq, iqtisadi-ticari əməkdaşlıq, nəqliyyat-logistika və enerji sahələrində qarşılıqlı maraqlara əsaslanan münasibətlər ildən-ilə dərinləşir. Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünə verdiyi dəstək, Orta Dəhlizin inkişafında fəal rolu və tranzit imkanları Çin üçün ölkəmizi strateji tərəfdaşa çevirir.

Eyni zamanda, Bakı və Pekin beynəlxalq platformalarda bir-birinin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir, qlobal və regional təhlükəsizlik məsələlərində oxşar mövqelər nümayiş etdirir. Bu isə Azərbaycan-Çin münasibətlərinin təkcə iqtisadi deyil, həm də siyasi-strateji xarakter daşıdığını göstərir və əməkdaşlığın uzunmüddətli perspektivlərini daha da möhkəmləndirir.

**İkitərəfli iqtisadi əlaqələrin inkişafına böyük təkan**

Son iki ildə əlaqələrin daha da möhkəmlənməsi istiqamətində olduqca vacib addımlar atılıb. 2024-cü ildə strateji tərəfdaşlığı, 2025-ci ildə isə hərtərəfli strateji tərədaşlığı özündə əks etdirən sənədlərin imzalanması Bakı-Pekin münasibətlərini yeni bir mərhələyə daşıyıb. Bu münasibətlər geniş spektli olmaqla yanaşı, həm də ikitərəfli əlaqələrin dərinləşməsinə zəmin yaradır. Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bildirib ki, Azərbaycan ilə Çin arasında imzalanan həmin siyasi sənədlər ikitərəfli iqtisadi əlaqələrin inkişafına böyük təkan verib: "İstər bizim tərəfimizdən, istərsə də Çin Xalq Respublikası tərəfindən biznes strukturlarına, dövlət strukturlarına əlaqələrimizi maksimum fəallaşdırmaq üzrə ciddi impuls verilib və biz bunu hətta qarşılıqlı səfərlərin, nümayəndələrin, artıq imzalanmış müqavilələrin sayında, o cümlədən investisiyaların nümunəsində də görürük".

Vurğulandığı kimi, əlaqələrin genişlənməsi iqtisadi müstəvidə əlaqələri daha da möhkəmləndirib. İkitərəfli əmtəə dövriyyəsi artıb, qarşılıqlı investisiya mühiti inkişaf edib, əlaqələr gücələnib - bu isə qarşıdakı dövrdə əməkdaşlığın daha da irəliyə aparılması üçün mühüm zəmindir. Dövlət başçısı bildirib ki, əmtəə dövriyyəsi rekord həddə - 4 milyard dollara çatıb, hətta 20 faiz artaraq 4 milyard dolları da keçib: "Bu, yəqin ki, bizim hər hansı bir ölkə ilə əmtəə dövriyyəmizdə ən böyük artımdır. Biz imzalanmış investisiya xarakterli müqavilələri görürük, Çin şirkətləri Azərbaycana fəal şəkildə investisiya qoymağa başlayıb, əvvəllər bu yox idi. Ayrıca investisiya layihələri var idi, amma belə böyük sayda və dövlət strukturları ilə bu cür koordinasiya şəraitində bizi bunu müşahidə etmirdik. Yəni bu ondan xəbər verir ki, qarşılıqlı fəaliyyəti genişləndirmək üçün çox ciddi siqnal və impuls verilib".

**Çin şirkətlərini seçdik...**

Çin Azərbaycanda bərpa olunan enerji sahəsində aktiv iştirak edir - Azərbaycan Prezidentinin Çinə səfərləri zamanı bu amil ön plana çıxıb. Qeyd edək ki, ötən ilin aprelində Prezident İlham Əliyevin Çinə səfəri zamanı bərpa olunan enerji sahəsində əməkdaşlığa dair 6 sənəd imzalanıb. Bu sənədlər ümumilikdə 260 MVt gücündə günəş elektrik stansiyaları, 100 MVt-lıq üzən günəş elektrik stansiyası, 30 MVt gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 QVt gücündə külək elektrik stansiyasının inşası, daha 2 MVt gücündə külək enerjisi layihəsinin inkişafı, eləcə də bərpa olunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir. Dövlət başçısı müsahibəsində bildirib ki, artıq Çin şirkətləri bərpaolunan enerji mənbələrinə investisiyalar qoyur. Elektrik, Günəş, külək stansiyalarının tikintisinə başlanılır və bu stansiyaların sayının artırılması üzrə müraciətlər var. "Günəş panellərinin istehsalı üzrə zavodun tikintisinə başlanılıb, elektrik avtobuslarının yığılmasına başlanılıb. Bununla bağlı deməliyəm ki, bu, Azərbaycan tərəfinin strateji qərarı olub, çünki biz təkcə yaşıl energetikanı deyil, həm də yaşıl nəqliyyatı inkişaf etdirmək qərarına gəldikdə, gündəmdə strateji tərəfdaş seçmək məsələsi dayandı və Çin şirkətlərini seçdik", -deyən Prezident onu da vurğulayıb ki, layihənin icrasının peşəkarlığı, keyfiyyəti və sürəti bu seçimin düzgünlüyünü təsdiqlədi. Buna görə də Bakıda gördüyümüz yaşıl avtobusların bəziləri satın alındı və onların yığılmasına bu il başlanacaq, gələcəkdə isə lokallaşdırma artacaq.

**Çindən əlavə yükdaşımalar...**

İki ölkə arasında əlaqələrdən danışarkən, müasir qlobal iqtisadi münasibətlər sisteminin ən mühüm ştrixlərindən biri, Şərq-Qərb əməkdaşlıq xətti xüsusilə diqqəti cəlb edir. Yeni iqtisadi nizamın ən strateji məqamlarından olan Şərq-Qərb dəhlizi üzrə əlaqələr Bakı-Pekin münasibətlərinə xüsusi rəngarənglik qatır. Ötən ilin aprelində iki ölkə arasında imzalanan hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat bu əməkdaşlığın istiqamətlərini tam şəkildə özündə əks etdirir. Vurğulamaq lazımdır ki, Orta Dəhlizin inkişafına xüsusi həssaslıqla yanaşan Çinin Azərbaycana münasibətdə strateji tərəfdaş yanaşması ölkəmizə həm siyasi həm də iqtisadi üstünlüklər vəd edir. Paralel olaraq iki ölkə bu əlaqələrin şaxələndirilməsi istiqamətində davamlı işlər görürlər. Prezident İlham Əliyev bildirib ki, Çin Xalq Respublikası hazırda Xəzər dənizinə dəmir yolunun, Qırğızıstan və Özbəkistan vasitəsilə daha bir dəmir yolunun tikintisini maliyyələşdirir, milyardlarla dollar sərmayə qoyur: "Orada relyef çox mürəkkəbdir və çoxsaylı tunellər və körpülər tikilməlidir. Bu fakt onu göstərir ki, onlar bu layihəni maliyyələşdirmək qərarına gəldikləri üçün həmin dəmir yolu boş qalmayacaq. Xəzər dənizinə və deməli, Azərbaycana yükdaşımaların həcmi artacaq. Mərkəzi Asiya ölkələri ilə yanaşı, Çindən əlavə yükdaşımalar təbii ki, Şərq-Qərb marşrutunu, Orta Dəhlizi tam işlək vəziyyətə gətirəcək".

Nəzərə alaq ki, Çinin "Bir kəmər bir yol" iqtisadi ideyasının real təcəssümlərindən olan Orta Dəhliz və yeni Zəngəzur dəhlizi (TRİPP) həm də geostrateji səciyyə daşıyır - bu dəhliz Çin və Mərkəzi Asiya məhsullarının ən qısa marşrut vasitəsilə operativ və effektiv olaraq Avropaya daşınmasına imkan yaradır. Mərkəzi Asiyadan Avropaya qədər uzanan geosiyasi məkanda çoxvektorlu qarşılıqlı-faydalı əməkdaşlıq münasibətləri formalaşdırmaqda maraqlı olan Çin Azərbaycana yanaşmasını ortaya qoymaqla bu layihədəki tərəfdaşını dünyaya nümayiş etdirir. Prezident müsahibəsində bildirib ki, Çin və Orta Asiya ölkələrindən gələn yüklərin də Zəngəzur dəhlizi boyunca hərəkət edəcəyini gözləyirik. "Təbii ki, biz buna ilk növbədə Naxçıvan Muxtar Respublikası ilə əlaqə kimi, həm də beynəlxalq nəqliyyat dəhlizi kimi baxırıq. Bu gün Azərbaycandan Qərbə doğru bir dəmir yolu marşrutu var, onların sayı iki olacaq. İki həmişə birdən yaxşıdır, xüsusilə açıq okeana çıxışınız olmadığı və qonşu ölkələrdən keçməli olduğunuz bir şəraitdə. Həmişə həcm üçün, rəqabətqabiliyyətlilik üçün, tranzit marşrutunun inhisarlaşdırılmasının qarşısını almaq və təbii ki, daha rəqabətli tariflər təmin etmək üçün alternativə sahib olmaq daha yaxşıdır", - deyən dövlət başçısı bildirib ki, bu, bizim qarşılıqlı fəaliyyətimizin çox böyük sektorudur və təbii ki, belə olan halda düşünürəm, həm əmtəə dövriyyəsinin həcmi nöqteyi-nəzərindən, potensial baxımdan və belə demək mümkünsə, həm də Cənubi Qafqazdan axını sonrakı istiqamətlər üzrə bölüşdürəcək ölkə kimi, Çin Xalq Respublikası üçün burada, bu regionda Azərbaycan prioritet tərəfdaşdır.

**Azərbaycana böyük fayda gətirəcək layihələr...**

İkitərəfli əlaqələrin inkişafı hərbi-texniki sahədə də əməkdaşlığı intensivləşdirib. İmzalanan sənədlərdə də Azərbaycan ilə Çin arasında hərbi-texniki münasibətlərin inkişaf etdirilməsi strateji tərəfdaşlığın mühüm istiqamətlərindən biri kimi diqqət çəkir. Qarşılıqlı hörmət, suverenlik və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanan bu əməkdaşlıq regional və qlobal təhlükəsizlik çağırışları fonunda ön plana çıxır. Azərbaycan öz Silahlı Qüvvələrinin modernləşdirilməsi prosesində müxtəlif mənbələrlə əməkdaşlığa üstünlük verir və Çin bu baxımdan mühüm tərəfdaşlardan biri kimi çıxış edir.

İki ölkə arasında hərbi-texniki sahədə əlaqələr əsasən müdafiə sənayesi, hərbi texnologiyaların mübadiləsi, avadanlıq və texniki vasitələrin əldə olunması, həmçinin mütəxəssis hazırlığı istiqamətlərini əhatə edir. Bu əməkdaşlıq ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsinə, regionda sabitliyin və etimad mühitinin qorunmasına xidmət edir. Prezident İlham Əliyev müsahibəsində deyib ki, Çin ilə Azərbaycan arasında daha bir yeni əməkdaşlıq istiqaməti hərbi-texniki əməkdaşlıqdır: "Ona da, həmçinin əldə olunmuş siyasi razılaşmalar çərçivəsində başlanılıb. Bu, Çin və Azərbaycan arasında yeni bir qarşılıqlı fəaliyyət sahəsidir. Bu əməkdaşlığın bir hissəsi hərbi paradda nümayiş etdirilib, amma bu, yalnız başlanğıcdır. Biz bu halda böyük qarşılıqlı maraq görürük. Bundan əlavə, hərbi texnikanın əldə olunması ilə kifayətlənməyərək, biz müştərək müəssisələrin yaradılması üzərində işləyirik və bu sahədə işlər artıq başlayıb. Bu, ümumiyyətlə, ictimaiyyətin diqqətindən gizli saxlanılır, necə ki, belə də olmalıdır, amma həm də hər iki ölkə tərəfindən verilən strateji xarakterli ciddi siyasi qərardır və böyük potensiala malikdir. Əminəm ki, yaxın gələcəkdə həm yeni müqavilələrin, həm də artıq prosesdəki layihələrin həyata keçirilməsinin şahidi olacağıq. Bu, təbii ki, Azərbaycana böyük fayda gətirəcək".

***P.İSMAYILOV***

# TDT-nin hərbi əməkdaşlığının gücləndirilməsi zərurətdir

Müasir dövrdə dünya siyasəti və beynəlxalq münasibətlər sistemi olduqca mürəkkəb xarakterə malikdir. Beynəlxalq müstəvidə işbirliyi, rəqabət, ziddiyyət, inteqrasiya və konfrontasiya meyillərinin artdığı bir şəraitdə regional əməkdaşlıq və beynəlxalq təhlükəsizlik məsələləri xüsusi əhəmiyyət daşıyır.

Şübhəsiz, əsrlər boyu dünya tarixində bəşəri dəyərləri ilə özünəməxsus yer tutmuş türk xalqları məhz bu gün mürəkkəb beynəlxalq münasibətlər və qloballaşma şəraitində öz mövcudluğunu qoruyub saxlamaqda, həmçinin bəşəriyyətin inkişafına, inteqrasiya və əməkdaşlığa xüsusi töhfələr verməkdədirlər. Tarixin bütün dövrlərində ən müxtəlif sosiomədəni, etno-mədəni və etno-siyasi proseslər və hadisələrin əsas məkanı qismində çıxış edən Avrasiyada türk xalqları müsbət regional və beynəlxalq dəyişikliklərə səbəb olan proseslərin baş verməsində özünəməxsus rol oynayıblar.



**Türk dövlətlərinin əlaqələri güclənir**

Dünyanın mövcud geosiyasi şərtləri fonunda türk dövlətləri arasında əməkdaşlıq münasibətləri bu gün daha aktual və vacib xarakter daşıyır. Xüsusilə, Avrasiyada mühüm geostrateji proseslərin baş verdiyi zamanda türk dövlətləri arasında çoxşaxəli, səmərəli və uğurlu əlaqələrin mövcud olması regional təhlükəsizlik, beynəlxalq inteqrasiya kontekstində çox mühüm əhəmiyyətə malikdir.

XXI əsrdə yeni dünya düzəninin formalaşdığı bir vaxtda Türk Dövlətləri Təşkilatı (TDT) öz gücünü daha da artırır. Malik olduğu resurslar, əhali sayı, coğrafi mövqeyi baxımından türk dünyası artıq qlobal miqyasda əsas geosiyasi, geoiqtisadi güc mərkəzlərindən birinə çevrilir. Türk dünyası ortaq tarix, dil və mədəniyyətə malik 7 müstəqil dövlət, bir neçə muxtar ərazidən ibarət böyük coğrafi məkandır. 2009-cu ildə Naxçıvanda təsis edilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bu əməkdaşlığın daha da inkişaf etməsi və birliyin möhkəmlənməsi üçün mühüm platforma rolunu oynayır.

2021-ci ildə təşkilatın statusu və nüfuzu daha da yüksəldilərək Türk Dövlətləri Təşkilatı adlandırıldı və bu addım türk dünyasının beynəlxalq arenada söz sahibi kimi çıxış etməsinə imkan yaradır.

**Prezident birgə hərbi təlimlərin vacibliyini vurğulayıb**

Azərbaycan TDT-nin təsisçi üzvlərindən biri olaraq bu təşkilatın fəaliyyətində mühüm rol oynayır. Ölkəmiz təşkilat yaranan gündən ona xüsusi önəm vermiş və bu istiqaməti xarici siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirmişdir. Azərbaycan TDT-ni üzv və müşahidəçi dövlətlərlə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün vacib platforma hesab edir. Azərbaycan dövləti TDT çərçivəsində qurumun nüfuzunu artırmaq və funksionallığını gücləndirmək üçün mütəmadi olaraq yeni təşəbbüslərlə çıxış edir. Məsələn, Azərbaycan Prezidentinin təklifi ilə TDT-də qeyri-rəsmi zirvə görüşlərinin keçirilməsi formatı təsis olunub, habelə 2023-cü il Astana sammitində İlham Əliyev təşkilatın fəaliyyət gündəminə hərbi-sənaye və müdafiə sahəsində əməkdaşlığın əlavə edilməsini təklif etmişdi. Ötən il Qəbələdə keçirilən Zirvə görüşündə isə Azərbaycan Prezidenti TDT ölkələrinin hərbi əməkdaşlığının elementi olaraq 2026-cı ildə birgə təlimlər keçirməsini təklif edib. Bu kimi təşəbbüslər Azərbaycanın TDT daxilində fəal mövqeyini və təşkilatın inkişafına verdiyi töhfəni nümayiş etdirir.

Yeri gəlmişkən, yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı dövlət başçısı bildirib ki, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir. "Biz üzv ölkələrlə ikitərəfli formatda hərbi təlimlər keçiririk. Təbii ki, ən çox Türkiyə ilə, amma digər ölkələrlə də. Ancaq birgə hərbi təlimlərin keçirilməsində həm böyük rəmzi məna ola bilər, eyni zamanda, praktik nöqteyi-nəzərdən buna ehtiyac var. Çünki yenə də deyirəm, mən bunu artıq bir neçə ildir ki, dilə gətirirəm. Həm də ki, öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs görək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var",-deyə Prezident vurğulayıb.

Bu gün Azərbaycan TDT-nin üzvü olan əksər dövlətlərlə artıq ikitərəfli müstəvidə strateji tərəfdaşlıq və ya müttəfiqlik münasibətləri qurub ki, bu da təşkilat çərçivəsində çoxtərəfli inteqrasiyaya əlverişli zəmin yaradır. Hazırda TDT-nin tamhüquqlu üzvləri Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandır. Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikası isə müşahidəçi statusundadır. Üzvlərin siyasi iradəsi nəticəsində TDT son illərdə institusional inkişaf yolunda əhəmiyyətli addımlar atır - məsələn, Türk İnvestisiya Fondu, Türk Dövlətlərinin Birgə Media Platforması, Fövqəladə Hallarda Mülki Müdafiə Mexanizmi, Türk Dövlətləri Birgə Universiteti kimi yeni təsisat və proqramlar formalaşdırılır. Beləliklə, TDT təkcə mədəni-humanitar əlaqələr platforması olaraq qalmır, eyni zamanda, iqtisadi və təhlükəsizlik məsələlərinin də gündəminə alaraq daha səmərəli bir inteqrasiya qurumu şəklində təşəkkül tapır.

**Cənubi Qafqaz və Orta Asiyada geosiyasi dəyişikliklər fonunda...**

Son illər Cənubi Qafqaz və Orta Asiya bölgələrində mühüm geosiyasi dəyişikliklər baş verir. Bu dəyişikliklər kontekstində türk dünyasının birliyi və koordinasiyası həm regiondaxili stabillik, həm də böyük güclərin rəqabətində tarazlığın qorunması baxımından önəm kəsb edir. İlk növbədə, 2020-ci ildə İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi Cənubi Qafqazda güc nisbətini dəyişdi. Bu hadisə təkcə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə qalmadı, eyni zamanda türk dövlətləri arasında həmrəyliyin mümkünsüz olmadığını praktikada göstərdi.

Orta Asiya regionunda da türk respublikalarının birlik meyilləri güclənib. Bunun da səbəbi həm dünyada, həm də yaxın regionlarda mürəkkəb qlobal proseslərin davam etməsidir. Bu proseslərin zərərlərindən yayınmaq üçün güclənmək, o cümlədən türk dövlətləri arasında hərbi əməkdaşlığı genişləndirmək zəruridir. Ona görə də, Prezident İlham Əliyevin müsahibədə dediyi kimi biz hərbi gücümüzü artırırıq. "Biz Türkiyə ilə rəsmi müttəfiqlik formatında əməkdaşlıq edirik, o cümlədən hərbi müttəfiqlik, o cümlədən bir-birinə hərbi yardım çərçivəsində. Ancaq yaxşı olardı ki, ailəmiz olan türk dövlətləri bu istiqamətdə də əməkdaşlığa başlasınlar. Bunu təklif etməklə mən heç də hansısa hərbi təşkilatın yaradılmasını təklif etmirəm. Bəziləri bunu belə yozurlar. Yox, bu, tamamilə əsassızdır. Biz indi sadəcə olaraq, energetika sahəsində, nəqliyyat sahəsində, ticarət, investisiya qoyuluşu, bir çox sahələrdə əməkdaşlıq edirik. Nə üçün bu sahədə də əməkdaşlıq etməyək? Nəzərə alsaq ki, bu gün bütün ölkələr üçün bu, bir nömrəli məsələdir, ona görə təklifim qüvvədədir"- deyə Prezident söyləyib.

Türk birliyinin geosiyasi əhəmiyyəti, həm də ondan ibarətdir ki, bu əməkdaşlıq böyük güclər arasında rəqabətin artdığı bir şəraitdə region ölkələri üçün "strateji kollektiv cavab" rolunu oynayır . Məsələn, 2022-ci ildən sonra Avropa ilə Çin arasındakı ticarət marşrutlarının Rusiya üzərindən keçməsi riskli hala gəldikdə, Orta Dəhliz kimi tanınan Trans-Xəzər nəqliyyat yolunun strateji dəyəri yüksəldi. Hazırda Orta Dəhlizin əsas iştirakçıları məhz Türk Dövlətləri Təşkilatının üzvləridir. Azərbaycan üçün isə türk birliyi Cənubi Qafqazda regional güc balansını öz xeyrinə dəyişdirmək, mövqelərini həm siyasi, həm iqtisadi baxımdan möhkəmləndirmək üçün əlverişli geosiyasi platformadır. Bütün bunların fonunda TDT üzvləri arasında hərbi əməkdaşlığın gücləndirilməsi olduqca vacibdir.

***Nərdar BAYRAMLI***

# Qlobal miqyasda artan nüfuz göstəricisi ...

## Omanla yeni əməkdaşlıq imkanları müzakirə olunub











Omanla Azərbaycan arasında turist axınının artırılması, turizm qurumları və özəl sektor arasında birbaşa əlaqələrin qurulması, birgə layihələrin və tanıtım tədbirlərinin təşkili məsələləri barədə fikir mübadiləsi aparılıb. Bu müzakirələr Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın yanvarın 5-də Omana səfəri zamanı aparılıb.

Səfər çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Oman Sultanlığının turizm və mədəni irs naziri Salim bin Məhəmməd Al Mahruqi ilə görüşüb. Görüşdə Azərbaycan ilə Oman arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğu vurğulanıb. Xüsusilə, turizm və mədəni irs sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.

**Heydər Əliyev Fondunun qlobal nüfuzu**

Qeyd edək ki, Heydər Əliyev Fondu 2004-cü ildən etibarən, dünya miqyasında müxtəlif humanitar və mədəni layihələr həyata keçirərək Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu artırıb. Fondun həyata keçirdiyi layihələr, əsasən səhiyyə, təhsil, mədəniyyət və xeyriyyəçilik sahələrində olub. Bu layihələrin məqsədi, müxtəlif ölkələrdə ehtiyacı olan insanlara yardım etmək, onların həyat şəraitini yaxşılaşdırmaq və Azərbaycan mədəniyyətini tanıtmaqdır.

Fondun həyata keçirdiyi ən mühüm təşəbbüslərdən biri, qlobal miqyasda sağlamlıq sahəsindəki layihələrdir. Fond bu sahədə müxtəlif ölkələrdə tibbi yardımların göstərilməsi, müasir tibbi avadanlıqların təchiz edilməsi və xəstəxanaların təmir edilməsində fəal iştirak edir.

**Azərbaycan-Oman münasibətlərinin inkişafı**

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Leyla Əliyeva bu cür görüşlərin Azərbaycan-Oman münasibətlərinin inkişafına mühüm töhfə verdiyini vurğulayıb. Leyla Əliyeva Azərbaycanın zəngin tarixi-mədəni irsi, turizm potensialı, o cümlədən sağlamlıq, ekoturizm, mədəni və qış turizmi imkanları barədə ətraflı məlumat verib. Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanın tarixi abidələrinin qorunması, bərpası və UNESCO çərçivəsində həyata keçirilən layihələr barədə danışaraq, bu sahələrdə Omanla təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətinə toxunub.

**Ölkəmiz Oman turistləri üçün cəlbedici istiqamətdir**

Salim bin Məhəmməd Al Mahruqi Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildirərək, mədəni irsin qorunması və turizmin dayanıqlı inkişafı sahələrində təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb. Nazir Azərbaycanın Oman turistləri üçün cəlbedici istiqamət olduğunu qeyd edərək, qarşılıqlı səfərlərin və rəsmi nümayəndə heyətləri arasında təmasların fəallaşdırılmasını müsbət qiymətləndirib.

Görüşdə gələcəkdə turizm sərgilərində birgə iştirak, media və tanıtım səfərlərinin təşkili, eləcə də mədəni tədbirlər vasitəsilə xalqlar arasında əlaqələrin daha da möhkəmləndirilməsi barədə razılıq əldə olunub.

Bundan başqa, Leyla Əliyeva Oman Milli Muzeyində və Mutrah bazarında olub. Leyla Əliyeva Oman Milli Muzeyində müxtəlif guşələri gəzib, nümayiş etdirilən eksponatlarla tanış olub, onların tarixi haqqında ətraflı məlumat alıb.

Bu muzey Omanın tarixi və mədəni irsini əks etdirən əsas mərkəzlərdən biridir. Rəsmi olaraq 2016-cı ildə fəaliyyətə başlayan muzeydə arxeologiya, dənizçilik, silahşünaslıq, etnoqrafiya, İslam mədəniyyəti və s. üzrə zəngin kolleksiyalar nümayiş etdirilir. Burada hər biri Omanın mədəni irsinin fərqli aspektlərini əhatə edən 14 daimi qalereya mövcuddur, həmçinin müvəqqəti sərgilər üçün əlavə sahələr ayrılıb.

Muzeylə tanışlıqdan sonra Leyla Əliyevaya hədiyyə təqdim olunub, xatirə şəkli çəkdirilib.

Eyni zamanda, Leyla Əliyeva Maskatda Sultan Opera Evində olub. 2011-ci ildə rəsmi açılışı olan Opera Evi Omanın mədəniyyət və incəsənət sahəsində ən mühüm məkanlarından biridir. Musiqi gecələri, teatr tamaşaları, eləcə də konfrans və digər tədbirlərin təşkil olunduğu Opera Evində rəsm qalereyası da fəaliyyət göstərir.

Qeyd edək ki, bura ərəb dünyasında ikinci ən böyük Opera Evi hesab olunur. Sultan Opera Evi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı arasında əməkdaşlıq mövcuddur.

Səfər çərçivəsində Leyla Əliyeva Maskat şəhərində Sultan Qabus adına Xərçəngin Kompleks Müalicəsi və Tədqiqatı Mərkəzini ziyarət edib. Leyla Əliyevanı Mərkəzdə tibb şəhərciyinin icraçı direktoru xanım Siham Sinaniyya qarşılayıb.

L.Əliyeva mərkəzin müxtəlif bölmələrini gəzib, burada xəstəliyin müalicəsində istifadə olunan müasir tibbi avadanlıqlara baxıb. Sonda burada müalicə alan xəstələr üçün Leyla Əliyevanın adından tibb mərkəzinə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Leyla Əliyevanın Oman səfəri həmçinin Heydər Əliyev Fondunun beynəlxalq miqyasda qazandığı uğurların bir göstəricisidir. Azərbaycanın humanitar və mədəniyyət sahələrindəki fəaliyyəti dünya ölkələri ilə əməkdaşlıqda mühüm rol oynayır. Bu, yalnız Azərbaycanın deyil, bütün dünya xalqlarının bir-birini daha yaxından tanımasına və birgə iş aparmasına zəmin yaradır. Heydər Əliyev Fondunun fəaliyyətləri, gələcəkdə daha da genişlənərək, Azərbaycanın qlobal miqyasda artan nüfuzunun göstəricisi olacaqdır.

*Yeganə BAYRAMOVA*

# Sadiq və etibarlı enerji təchizatçısı

## Azərbaycanın qaz nəql etdiyi ölkələrin sayı 16-ya çatır

Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində Azərbaycanın uğurlu enerji siyasətinin dünya ölkələrinin yanacaq təminatında oynadığı rola diqqət çəkərək son illərdə həcm və coğrafiya baxımından qaz ixracımızın artdığını xatırlardı. Qeyd etdi ki, ölkəmiz indiyədək 11-i müntəzəm əsasda olmaqla, 14 ölkəni qazla təchiz edir. "Azərbaycanın boru kəməri vasitəsilə qaz nəqlinin coğrafi əhatə dairəsi 14 ölkədən ibarətdir. Bu il onlara daha iki Avropa ölkəsi əlavə olunacaq. Ümumilikdə, 16 ölkə olacaq, bu, boru kəməri qazı ilə bağlı ən böyük rəqəmdir. Dünyada heç bir ölkə Azərbaycan kimi bu qədər ölkəni boru kəməri vasitəsilə qazla təchiz etmir. Ötən il bizim ixracımız artım potensialına malik olmaqla, 25 milyard kubmetrdən çox olub".

Azərbaycan qaz nəqlini həm istehsalın həcminin artması, həm də bərpaolunan enerjinin daxili yanacaq təchizatında rolunun artması sayəsində qaza qənaət edilməsi hesabına artırır. Bərpaolunan enerji ehtiyatlarının son 2 ildə 4 milyard KVs.ta çatdırılması yerli qaz istehlakında azalmanı təmin edir ki, əldə edilən qənaət hesabına xarici dövlətlərə nəql potensila böyüyür. Nəticədə, regionun ən nəhəng ixrac arteriyalarından biri olan Cənub Qaz Dəhlizi və TAP-ın nəqli coğrafiyası genişlənir.

### TAP kəməri ilə Avropaya 54 milyard kubmetrdən çox qaz nəql edilib

Azərbaycan təbii qazını Avropa bazarlarına çatdıran TAP boru kəməri ilə indiyə qədər 54 milyard kubmetrdən çox qaz nəql edilib. Kəmərin operatoru TAP AG şirkətinin məlumatına görə, tən ilin sonunda TAP ilə ticarət əməliyyatlarına başlanmasından 5 il ötüb. 2020-ci il dekabrın 31-də kommersiya qaz nəqlinə başlayan boru kəməri ötən müddət ərzində Avropanın enerji təhlükəsizliyini və davamlılığını dəstəkləyib. TAP kəməri sayəsində Azərbaycan Avropanın etibarlı təbii qaz təchizatçısı kimi öz mövqeyini gücləndirib. Boru kəməri Azərbaycanın avropalı tərəfdaşları üçün hər zaman "təhlükəsizlik yastığı" rolunu oynayır, kommersiya əməliyyatları ilə qitədə qaz bazarının likvidliyinin artmasına kömək edir. TAP Cənub Qaz Dəhlizinin əsas hissəsi kimi Avropa üçün strateji və iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Boru kəməri Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından çıxarılan təbii qazı Avropaya çatdırır. TAP Türkiyə-Yunanıstan sərhədində TANAP boru kəmərinə birləşir, Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın cənubunda sahilə çıxır. Onun uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. Boru kəməri hazırda maksimum gücü ilə, yəni gündəlik 33 milyon kubmetr təbii qaz nəql edir. Bu, ildə orta hesabla təqribən 12 milyard kubmetr qaz deməkdir.

### Azərbaycanın müəllifi olduğu qaz alyansına 14 ölkə qoşulub

Ötən 20 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısı kimi etibarlı tərəfdaşa çevrilmiş respublikamız 2020-ci ilin dekabr ayının son günündə Cənub Qaz Dəhlizinin sonuncu hissəsini - Transadriatik qaz kəmərini (TAP) istifadəyə verməklə faktiki olaraq Avropa İttifaqına qaz bazarına daxil olub. 2021-ci ildə Azərbaycan Avropa regionuna 8 milyard kub.metr, 2022-ci ildə 11 milyard kubmetrdən çox qaz ixrac edib. 2023-cü ildə isə yanacaq nəqli 12 milyard kubmetr, 2024-cü ildə respublikamız xarici ölkələrə 25,2 milyard kubmetr həcmində qaz ixrac edib ki, onun 12,9 milyard kubmetri Avropa dövlətlərinin payına düşür.

Hazırda ölkəmiz Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna və Suriyaya qaz nəqlini təmin etməkdədir. Bu, ölkəmizin regionda və qlobal miqyasda etibarlı enerji ölkəsi kimi durmadan nüfuzu artdığını, ələxusus da qaz sahəsində yeni tərəfdaşların enerji ailəsinə daxil olduğunu təsdiqləyir.

Hazırda Azərbaycan 14 ölkəyə qaz ixrac edir ki, 10-u Avropa dövlətidir. Bu yüksək etimad və sadiq tərəfdaşlığın nəticəsidir ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, respublikamızdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və möhkəmləndirilməsində böyük dəyişiklik yaradır.

### TAP kəmərinin ötürücülük gücü genişləndirilir

Mövcud proqnozlara görə, 2026-ci ildə ölkəmizin Avropa regionuna ixracı 15 milyard kubmetrə çata bilər. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu isə digər ölkələrə də qaz nəqlini təmin edə biləcək. "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"na əsasən, 2027-ci illərdə ölkəmizin Avropaya qaz nəqli 20 milyard kubmetrədək artırılacaq. Bu rəqəmlər və proqnozlar Azərbaycanın qaz potensialını da artırmış olacaq və qaz təchizatının coğrafiyasının qarşıdakı illərdə daha da genişlənməsinə imkan verəcək. Növbəti illərdə Moldova, Avstriya, Moldovanın da qaz əldə etməsi planlaşdırılır.




Azərbaycanın qaz istehsalı həcmlərinin artması və yanacağa olan tələbatın yüksəlməsi Cənub Qaz Dəhlizinin ixrac infrastrukturunun da genişləndirilməsini labüd edir. Bu ehtiyaclar fonunda TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində davamlı addımlar atılır.

### "Şahdəniz"dən sonra "Abşeron" dövrü başlayır

Azərbaycanda qaz hasilatında əsas mənbə olan "Şahdəniz -2" layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən hazırda illik 16 milyard kubmetr qaz istehsal edilir. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqları, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2024-cü ildə bu yataqdan 1,5 milyard kubmetrdən çox qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Yataqda 350-360 milyard kub.metr qaz ehtiyatları ehtimal edilir. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kub.metrdən də çox olduğunu deməyə əsas verir. Bu isə təkcə, "Abşeron"un Aİ-yə ən azı 20-25 qaz nəqlində perspektiv mənbə olacağını təsdiqləyir. Yeri gəlmişkən, dünyanın ən nüfuzlu iqtisadi institutlarından biri olan "Fitch Ratings" bir müddət əvvək açıqladığı hesabatda "Abşeron" qazkondensat yatağının "Şahdəniz-2"dən sonra Azərbaycanın ən böyük qaz mədəni olduğunu bildirib.

### Digər türk dövlətlərinin TAP-a qoşulmaıs reallaşır

Avropa İttifaqı Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstanın da Cənub Qaz Dəhlizinə qoşulmasını və bununla Xəzər mənbəyindən Avropaya illik 100 milyard kubmetrə yaxın qaz nəqlinin əldə olunmasına çalışır. Aİ Mərkəzi Asiya-Xəzər regionlarından çoxşaxəli qaz nəqli tranziti şəbəkəsi yaratmaq niyyətindədir. Mərkəzi Asiyanın ehtiyatlarının Avropa bazarına çatdırılması istisna deyil. Türkmənistan qazının Avropaya nəqli üçün Azərbaycanın müəllifi olduğu TAP kəməri və Cənubi Qaz Dəhlizi maşrutu mövcuddur və işləkdir. Qalır türkmən qazını bu dəhlizə cəlb edərək Avropaya çatdırmaq. Bunun üçün hüquqi mexanizm və beynəlxaql sazişlər olmalıdır. Artıq bu istiqamətdə də hüquqi-iqtisadi təminatlar yaradılır və bu beynəlxalq öhdəliyi isə ilk növbədə Azərbaycan və Türkiyə öz üzərinə götürüb. Ötən ay Bakıda Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanan saziş çərçivəsində Türkmənistan qazının Gürcüstan ərazisi ilə Türkiyəyə tədarükü ilə bağlı əldə olunmuş razılaşmaya əsasən, Türkmənistan qazı Bakı-Tbilisi-Ərzurum-TANAP-vasitəsilə nəql olunacaq, gələcəkdə isə TAP-la Avropaya ixracı nəzədə tutulur.

*ELBRUS CƏFƏRLİ*

# "Yaşıl enerji"də yeni mərhələ

## Azərbaycanın müəllifi olduğu enerji həmrəyliyində yer alan ölkələrin sırası genişlənir

2025-ci ilin yanvar-noyabr aylarında ölkəmizdə "yaşıl enerji" istehsalında rekord göstəricilər əldə edilib. Qeyd edilən dövr ərzində su elektrik stansiyalarında (SES) 11 ayda 3 milyard kVt·st-a yaxın təmiz enerji tədarük olunub. Günəş elektrik stansiyalarında 600 mln. kVt·st-dan çox, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə təxminən 200 mln. kVtst, külək elektrik stansiyalarında isə 100 milyon kVts elektrik enerjisi istehsal edilib. Ümumilikdə, 11 ayda "yaşıl enerji" istehsalı 3,8 milyard kVt·st-ı ötüb.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə bərpaolunan enerji mənbələrindən istehsal edilən güc ən azı 10 faiz artıb.

Qeyd edək ki, hesabat dövründə Azərbaycanda 24 milyard 603,5 milyon kVts elektrik enerjisi istehsal edilib. Bu o deməkdir ki, "yaşıl enerji"nin payı ümumi enerji istehsalında 16-17 faizə çatıb. Mövcud rəqəmlər bir daha təsdiq edir ki, artıq Azərbaycanda "yaşıl enerji" strategiyası uğurla başlanğıcla irəliləyir və bərpa olunan enerji növlərinin hər birində artım müşahidə edilir. Bu isə hökumətin 2030-cu ilə qədər elektrik enerjisində bərpa olunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və "yaşıl enerji" sahəsində lider olmaq üçün mövcud enerji siyasətinin uğurla icrasından xəbər verir.

### Dünyanın nüfuzlu şirkətləri ilə yeni sazişlər

Azərbaycan hökumətinin "yaşıl enerji" sektorunda həyata keçirdiyi strategiyanın əsas xətti yerli "yaşıl güclərin" istehsalı və emalına xarici investorların cəlb edilməsidir. Bu istiqamətdə müəyyən edilmiş siyasət öz uğurlu nəticələrini göstərməkdədir. Son 3 ildə Azərbaycan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın "bp", Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalayıb.

Ötən il 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyası və Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihələri üzrə yekun investisiya qərarları imzalanıb. Həmçinin, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və BP arasında Cəbrayıl rayonunda "Şəfəq" layihəsinin icrasına dair saziş yeni mərhələyə daxil olub, layihə çərçivəsində "Virtual Enerjinin Ötürmə Mexanizmi" adlanan yeni kommersiya modelinin tətbiqi üzrə texniki sənədlər razılaşdırılıb. Təxminən 200 milyon ABŞ dolları dəyərində olan "Şəfəq" GES-in tikintisinin 2027-ci ilin ortalarınadək yekunlaşması və bu müddətdə 400-ə yaxın iş yerinin yaradılması gözlənilir.

Habelə, ötən il Azərbaycan hökuməti ilə "Enerso Cəbrayıl" MMC arasında 50 MVt gücündə "Üfüq" GES-in inşasını nəzərdə tutan İnvestisiya Müqaviləsi imzalanıb. Digər saziş Azərbaycan hökuməti ilə "Clean Energy Jabrayil" MMC arasında imzalanan 50 MVt gücündə "Şəms" GES layihəsi üzrə İnvestisiya Müqaviləsidir. Bundan başqa, Energetika Nazirliyi ilə "Nobel Energy Limited" şirkəti arasında Naxçıvan şəhərində 30 MVt gücündə günəş elektrik stansiyasının qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsinə dair İcra Müqaviləsi də bərpaolunan enerji siyasətində mühüm sazişlərdən biri hesab edilə bilər.

Ümumilikdə, ötən il də daxil olmaqla, son 3 ildə Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 8 beynəlxalq təşkilat və 45 şirkətin təmsil olunduğu "yaşıl enerji" alyansının formalaşması təmin edilib. Bundan başqa, Azərbaycan Dünya Bankı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) kimi beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələr həyata keçirilir. AYİB 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının inşasına kreditlər ayıracaq. Ötən ay Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti ilə maliyyə tutumu 1 milyard dollar olan müqavilələrin imzalanması isə "yaşıl enerji" hərəkatında yeni dalğanın başlanğıcı sayıla bilər.

### Dörd ölkənin Məktubu

2025-ci ildə də "yaşıl enerji" mənbələrinin tədarükü və inkişafı istiqamətində mühüm addımlar atılıb. Qaradağ Günəş Elektrik Stansiyasının (GES) enerji gücü artırılıb, eləcə də, Biləsuvar Günəş Elektrik Stansiyasında (GES) istehsal sahəsi genişləndirilib, hazırda bu GES-də Çinin "JA Solar" şirkətinin istehsalı olan 900 mindən artıq günəş panelinin quraşdırılması işləri planlaşdırılır. Nəticədə gücü 625-630 Vt olan panellər vasitəsilə günəş şüalarından daha maksimum enerji istehsalı mümkün olacaq. Stansiyanın 2026-cı il ərzində istismara verilməsi planlaşdırılır.

Regional layihələr kontekstində Azərbaycanın Xəzər dənizi və Mərkəzi Asiyanın bərpaolunan enerji potensialının şaxələndirilməsi və Türkiyə və Avropa bazarlarına nəqli istiqamətində marşrutların yaradılması istiqamətində həyata keçirdiyi layihələr mühüm yer tutur. Bu istiqamətdə ötən ilin diqqətçəkən hadisələrindən biri də Budapeştdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında Yaşıl Enerji Dəhlizi üzrə Birgə Məktubun imzalanması oldu. Bu, həm də, "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti"nin (GECO) fəaliyyətinin yeni mərhələyə daxil olmasını təmin edib. Qeyd edək ki, GECO "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış yaşıl enerjinin inkişafı və ötürülməsi Sazişi"nin icrası məqsədilə dörd ölkənin təmsil olunduğu Birgə Müəssisədir.



### Böyük Britaniya nəhəngi ilə Anlaşma

Ötən il dünyanın nəhəng enerji investoirlarından olan Böyük Britaniyanın "Xlinks" şirkəti ilə əməkdaşlıq da uğurlu hadisələrdən biri kimi yadda qalıb. Birləşmiş Krallıqla enerji tərəfdaşlığının yeni səhifəsi olan "yaşıl enerji" üzrə əməkdaşlıqda əhəmiyyətli qərarlar verilib. İngilis şirkətləri "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"ndə təmsil olunmaq üçün "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti" (GECO) ilə anlaşma əldə edib. "Xlinks" şirkəti ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, GECO və "Xlinks" sözügedən enerji dəhlizinin sualtı kabel infrastrukturunun qurulmasında da iştirak edəcək.

"Xlinks" şirkəti isə irimiqyaslı bərpa olunan enerji və uzaq məsafəli ötürmə xətləri layihələri üzrə ixtisaslaşmış Böyük Britaniya şirkətidir. Şirkətin texniki heyəti Böyük Britaniya-Norveç arasında 720 km uzunluğunda və 1.4 QVt ötürmə gücü olan "North Sea Link" (Şimal Dənizi Linki) və Böyük Britaniya-Danimarka arasında 765 km uzunluğunda və 1.4 QVt ötürmə gücü olan "Viking Link" (Vikinq Linki) interkonnektorlarının inşasında təcrübəyə malikdir.

Azərbaycan Hökuməti ilə Avropa İttifaqı (Aİ) arasında da bərpaolunan enerji sahəsində faydalı əməkdaşlıq gücləndirilməkdədir.

Həmçinin islam dövlətləri ilə də bu istiqamətdə yeni təşəbbüslər dəyərləndirilərək mühüm anlaşma sənədlərinə imza atılıb. Ötən ilin dekabrında İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Təmiz Enerji Mərkəzi ilə Azərbaycan hökuməti arasında imzalanmış sazişə əsasən, mərkəz ölkəmizdə dayanıqlı enerji, enerji keçidi və enerji səmərəliliyi layihələrinin təşviqinə partyor olacaq. İƏT-in bu sahədə fəaliyyəti Azərbaycanda icra olunan milli və regional "yaşıl enerji" layihələri üçün əlavə imkanlar yaratmaqla yanaşı, ölkəmizin regional enerji proseslərində, o cümlədən Mərkəzi Asiya ilə enerji bağlantılarının qurulması istiqamətində rolunun daha da möhkəmlənməsinə xidmət edəcək.

### Türk dövlətlərinin mənafeyinə uyğun...

Beləliklə, Azərbaycan bərpaolunan enerji güclərini artırmaqla və müasir enerji gündəliyinə daxil olan dövlətlərinin coğrafiyasını genişləndirməklə "Yaşıl Enerji Dəhlizi" layihəsini irəlilətməkdədir. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" adlanan bu qlobal layihə Mərkəzi Asiyanın türk dövlətlərinin, eləcə də Azərbaycanın günəş və külək elektrik stansiyalarından alınan "təmiz" elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur. Bu baxımdan həmin strateji enerji xətti həm də türk dövlətlərinin vahid enerji siyasətini təmin etməklə "Türk Yaşıl Baxışı" və "Qəbələ Bəyannaməsi"nin prioritetləri ilə üst-üstə düşür. Bir sözlə, "Trans-Xəzər", "Azərbaycan-Türkiyə-Avropa", "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan", həmçinin "Xəzər-Qara dəniz-Avropa" "yaşıl enerji" dəhlizi və interkonnektor layihələri ən çox türk dövlətlərinin birliyini möhkəmləndirməyə xidmət edir.

### Ərəb dövlətləri də türk "yaşıl ittifaqı"na qoşulur

Yeri gəlmişkən, ərəb dövlətləri də "yaşıl enerji"nin türk koalisiyasına qoşulmağı planlaşdırır. Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri artıq xeyli müddətdir ki, Mərkəzi Asiya və Azərbaycanda "yaşıl layihələr"də təmsil olunur. Bu baxımdan Qara dəniz kabeli layihəsinin gələcəkdə Yaxın Şərq regionunu da əhatə edəcəyini və Şərq-Qərb enerji dəhlizinin formalaşacağını söyləmək mümkündür. "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan, Qazaxıstan, Özbəkistan və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı"nın imzalanması da bunu deməyə əsas verir.

Beləliklə, böyük karbohidrogen tədarükçüləri olan 3 türk dövləti və onların müttəfiqinə çevrilmiş Səudiyyə Ərəbistanı növbəti onilliklər ərzində qlobal neft istehlakının azalmasını fonunda ənənəvi enerjini kompensasiya edə biləcək "yaşıl enerji" potensialını qlobal bazarlara çıxaracaq. Bununla da, neft-qaz ölkələri kimi tanınmış bu dövlətlərin növbəti mərhələdə əsas vizyonu "yaşıl enerji"nin ixracatçıları kimi formalaşacaq.

### Azad ərazilərin "yaşıl gücü" artıb

Azərbaycan yaxın 5-6 ildə "yaşıl enerji" gücünü 2 dəfə artırmaqla qarşıya qoyduğu 30 faizlik təmin enerji gündəliyinə daha tez çatmış olacaq. Mövcud qiymətləndirmələrə əsasən, Azərbaycanda "yaşıl enerji" mənbələrinin potensialı quruda 135 QVt, dənizdə 157 QVt proqnozlaşdırılır.Təkcə, Qarabağ və Şərqi Zəngəzur bölgəsində hidroenerji, külək və Günəş enerjisi, termal su mənbələrinin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır.

Hidroenerji ehtiyatlarına görə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur. Təkcə ötən il azad edilmiş ərazilərdə hər birinin gücü 50 MVt olan "Şəms" və "Üfüq" günəş elektrik stansiyalarının təməli qoyulub, "Şəfəq" GES-də tikinti-quruculuq işləri davam etdirilib, Kəlbəcərdə külək enerji potensialının ölçmə-müşahidə işlərinə başlanılıb. Azad edilmiş ərazilərdə hazırda ümumilikdə 307 MVt gücündə 38 su elektrik stansiyasının fəaliyyət göstərir.

Beləliklə, Azərbaycanın yürütdüyü "yaşıl enerji" siyasəti bütün region ölkələrinin birgə enerji həmrəyliyini genişləndirməklə yeni mərhələyə daxil olub. Ölkəmizin bərpaolunan enerji potensialının artması əsas hədəflərdən biri olan - "yaşıl enerji"nin Avropa İttifaqına nəqli üçün imkanları daha da artırmaqla, hədəfə daha tez çatmağı şərtləndirir.

***E.CƏFƏRLİ***

# Hindistanın balans oyunu:

## praqmatizm pərdəsi altında gizlənən geosiyasi riyakarlıq

XXI əsrdə Hindistan özünü "çoxqoşulma" strategiyasının flaqmanı kimi qələmə verir. Narendra Modinin rəhbərliyi ilə Dehli iddia edir ki, o nə Qərbin, nə də Şərqin tərəfindədir; hər kəslə işləyir, heç kimə qarşı deyil, ideologiyalardan uzaq, yalnız milli maraqlara söykənən siyasət yürüdür. Kağız üzərində bu, ağıllı və çevik model kimi görünə bilər. Reallıqda isə bu yanaşma getdikcə daha çox riyakar, seçici və təhlükəli geosiyasi oyuna çevrilir.

Hindistan bir tərəfdən Qərbə demokratiya və qaydalara əsaslanan dünya nizamı haqqında mesajlar verir, digər tərəfdən Rusiyadan rekord həcmdə neft alır, BRICS-də anti-Qərb ritorikasına göz yumur, eyni zamanda İsraillə, İranla, Səudiyyə Ərəbistanı ilə paralel və ziddiyyətli gündəmlər qurur. Bu artıq balans deyil, prinsipsizlikdir. "Hamı ilə dostluq" iddiası əslində "heç kimə cavabdeh olmamaq" strategiyasına çevrilib. Hindistan özünü Qlobal Cənubun lideri kimi təqdim edir, amma bu liderlik əxlaqi nümunə üzərində yox, taktiki manipulyasiya üzərində qurulub. Qlobal Cənub üçün ədalət, beynəlxalq hüquq və suverenlikdən danışan Dehli iş real regional münaqişələrə gələndə bu prinsipləri rahatlıqla kənara qoyur. "Maraq" anlayışı Hindistan diplomatiyasında artıq ali dəyərə çevrilib və bu maraq hər şeyi - hüququ da, tərəfdaşlığı da, məsuliyyəti də əzir.

### Ermənistanı silahlandıran Dehli: Cənubi Qafqazda təhlükəli oyun

Bu riyakarlığın ən açıq nümunələrindən biri Hindistanın Ermənistanı silahlandırmaq siyasətidir. Dehli son illərdə Ermənistana raket sistemləri, artilleriya qurğuları və hərbi texnika satmaqla faktiki olaraq Cənubi Qafqazda yeni silahlanma spiralını qızışdırır. Sual isə çox sadə və çox kəskindir: Hindistanın bu regionda nə işi var? Azərbaycanla heç bir münaqişəsi, regionla tarixi təhlükəsizlik əlaqələri olmayan Hindistan niyə Ermənistanı silahlandırır? Azərbaycanı özünə rəqibmi görür? Yoxsa Pakistanla düşmənçiliyini bütün coğrafiyalara ixrac etmək qərarına gəlib? Əgər Hindistanın məntiqi budursa ki, "Pakistanın dostu mənim düşmənimdir", bu, artıq qlobal güc iddiası yox, geosiyasi kin və emosional revanşizmdir.

Azərbaycan Pakistanla strateji tərəfdaşdır - bu, açıq və legitim seçimdir. Amma Hindistanın buna cavabı diplomatik balans axtarmaq yox, Ermənistan kimi məğlub olmuş, revizionist və regional sabitliyi pozan bir aktoru silahlandırmaqdırsa, burada "praqmatizm" yox, qərəz var. Dehli bir tərəfdən beynəlxalq hüquqdan, suverenlikdən danışır, digər tərəfdən Ermənistanın uzun illər Azərbaycan torpaqlarını işğal etməsinə səssiz qalıb, indi isə onu yenidən silahlandıraraq sülh prosesini risk altına atır. Bu siyasət Hindistanın iddiasında olduğu "məsuliyyətli güc" obrazını darmadağın edir, çünki məsuliyyətli güc münaqişə ixrac etmir. Məsuliyyətli güc məğlub tərəfi revanş üçün silahlandırmaz. Məsuliyyətli güc regional balansı pozan tərəfə çevrilməz. Hindistan isə məhz bununla məşğuldur - özü də minlərlə kilometr uzaqda, anlamadığı, amma manipulyasiya etdiyi bir regionda.



### Qlobal Cənubun lideri, yoxsa maraqların girovu?

Hindistanın "çoxqoşulma" strategiyası getdikcə daha artıq özünü ələ verir: bu, neytrallıq deyil, hesablanmış opportunizmdir. Dehli hər masada oturmaq istəyir, amma heç bir masada məsuliyyət daşımaq istəmir. O həm sülhdən danışır, həm silah satır, həm beynəlxalq hüquqdan dəm vurur, həm onu selektiv tətbiq edir, həm dialoqa çağırır, həm də regionlara nifaq toxumu səpir. Bu yanaşma qısa müddətdə Hindistana manevr imkanı verə bilər, amma uzun müddətdə onu etibarsız tərəfdaşa çevirir. Çünki dünya siyasətində hamı ilə oyun oynayanlara bir müddət dözürlər, sonra isə heç kim inanmır. Qlobal Cənubun lideri olmaq üçün təkcə böyük əhali və iqtisadiyyat yetmir; əxlaqi ardıcıllıq lazımdır. Hindistan isə bu ardıcıllığı itirir.

Cənubi Qafqazda Ermənistanı silahlandırmaqla Hindistan özünü sülhün yox, gərginliyin tərəfinə yazdırır. Bu, nə Qlobal Cənub maraqlarına uyğundur, nə də Hindistanın iddia etdiyi "dayanıqlı dünya nizamı" anlayışına. Əgər "çoxqoşulma" strategiyası belə görünürsə, deməli, problem strategiyada yox, niyyətdədir. Nəticə etibarilə Hindistanın siyasəti praqmatik model kimi təqdim olunsa da, əslində bu, riyakar balans, seçici prinsip və təhlükəli ikili standartlar sistemidir. Bu yol Hindistanı liderliyə aparmır, onu şübhə doğuran gücə çevirir. Tarix dönə-dönə göstərib ki, dünya siyasətində şübhə doğuran güclərin ömrü uzun olmur.

***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

# Suriya sərhədində gərginlik və Türkiyənin təhlükəsizlik strategiyası

## Regional sabitlik naminə qətiyyətli və məsuliyyətli yanaşma

Son vaxtlar Türkiyə silahlı qüvvələrinin Suriya ilə sərhəd bölgələrində hərbi mövcudluğunu artırması regional və beynəlxalq gündəmin əsas mövzularından birinə çevrilib. Afrin və Hələb istiqamətlərindən Suriyaya daxil olan hərbi karvanlar, ardınca yeni konvoyların bölgəyə yönləndirilməsi bu addımların təsadüfi deyil, planlı və strateji xarakter daşıdığını göstərir. Türkiyənin Suriyanın şimalında həyata keçirdiyi hərbi-logistik fəaliyyətlərin əsas məqsədi YPG kimi silahlı qruplaşmaların yaratdığı təhlükənin qarşısını almaqdır. YPG (Yekineyen Parastina Gel - Xalq Müdafiə Dəstələri) Suriyanın şimalında fəaliyyət göstərən silahlı qruplaşmadır. Struktur baxımından PKK-nın Suriya qolu hesab olunur, ideoloji, təşkilati və kadr baxımından PKK ilə birbaşa bağlıdır. Ankara bu strukturları milli təhlükəsizliyinə birbaşa təhdid sayır və bunu açıq bəyan etməkdən çəkinmir. "Sülh çeşməsi" əməliyyat zonası və Afrin istiqamətindəki hərbi aktivlik, əslində, Türkiyənin sərhədlərini qorumaqla yanaşı, bölgədə terror infrastrukturunun dərinləşməsinin qarşısını almağa yönəlib. Burada xüsusilə vurğulanmalıdır ki, Türkiyə təkcə hərbi gücə arxalanmır; rotasiya, logistik təminat və mövcud mövqelərin möhkəmləndirilməsi Ankaranın uzunmüddətli təhlükəsizlik planlamasının tərkib hissəsidir. Bu, impulsiv deyil, dövlət ağlı ilə yürüdülən siyasətdir.

### Dəməşqin hərbi fəallığı və paralel proseslər

Eyni zamanda, Suriya hökumətinin Deyr-əz-Zor və Rakka istiqamətlərində hərbi qüvvələrini artırması regionun nə qədər həssas mərhələyə qədəm qoyduğunu göstərir. Tişrin - Deyr-əz-Zor xətti boyunca baş verən toqquşmalar Dəməşqi daim bu bölgələrə əlavə qüvvə göndərməyə vadar edir. Bu proseslər Türkiyənin atdığı addımların məntiqli olduğunu bir daha sübuta yetirir: sərhədin o tayında güc balansı dəyişdikcə Ankara öz təhlükəsizlik kəmərini gücləndirməyə məcburdur.

### 10 mart razılaşması və "final mərhələ"

Analizin ən vacib siyasi komponentlərindən biri 10 mart tarixli razılaşma ilə bağlıdır. Bu sənədin məqsədi Suriyanın parçalanmış xəritəsini yenidən bütövləşdirmək və keçid dövrünü başa çatdırmaq idi. Tərəflərə ilin sonuna qədər vaxt verilməsi təsadüfi deyildi. Məhz ötən dekabr ayı bu baxımdan həlledici mərhələ sayılırdı.

YPG-nin danışıqlardan yayınması, əvəzində müdafiə infrastrukturu - xəndəklər, tunellər, beton istehkamlar inşa etməsi təşkilatın real niyyətlərini açıq şəkildə ortaya qoyur. Bu, siyasi inteqrasiyadan çox silahlı qarşıdurmaya hazırlıq strategiyasını xatırladır.

### Sərhədin altındakı gizli müharibə

Açıq mənbələrə əsaslanan kəşfiyyat (OSINT) materialları YPG-nin Suriya-Türkiyə sərhədi boyunca geniş yeraltı tunel şəbəkəsi qurduğunu göstərir. Kəhtaniyə (Qamışlı ətrafı) və Ayn əl-Ərəb (Kobani) bölgələrində aşkar edilən xəndəklər, keçid nöqtələri və tunellər klassik müdafiə tədbirlərindən daha artıqdır. Bu strukturlar uzunmüddətli müharibə ssenarisinə uyğun hazırlanıb. Xüsusilə Kobani ətrafında şəhəri halqa şəklində əhatə edən xəndəklər, kəndlərə qədər uzanan müdafiə xətti və çoxsaylı keçid nöqtələri ciddi logistik planlamadan xəbər verir. Peyk görüntülərinin illər üzrə müqayisəsi isə daha təhlükəli mənzərəni üzə çıxarır: dağlıq ərazidə gizlədilmiş, böyük sahəni əhatə edən yeraltı baş qərargah kompleksi. Bu cür infrastrukturlar təkcə yerli müdafiə üçün deyil, regional sabitliyi pozmaq potensialına malik genişmiqyaslı planların göstəricisidir. Bütün bu faktlar fonunda Türkiyənin mövqeyi xüsusilə diqqətəlayiqdir. Ankara həm hərbi, həm siyasi, həm də kəşfiyyat səviyyəsində vəziyyəti diqqətlə izləyir və qabaqlayıcı addımlar atır. Türkiyə bu bölgədə xaosun dərinləşməsində yox, əksinə, nəzarətsiz silahlı strukturların qarşısının alınmasında maraqlıdır.

Türkiyə təhlükəni sərhədlərinə çatmamış, mənbəyində neytrallaşdırmağa çalışır. Bu yanaşma bütövlükdə regionun təhlükəsizliyinə töhfədir. Məhz buna görə Ankara bu gün Yaxın Şərqdə ən rasional və məsuliyyətli təhlükəsizlik aktorlarından biri kimi çıxış edir.

Suriya sərhədində baş verənlər sadəcə, lokal hərbi hərəkətlər deyil. Bu, siyasi razılaşmaların taleyinin həll olunduğu, yeraltı tunellərlə aparılan gizli müharibənin açıq mərhələyə keçə biləcəyi kritik dövrdür. Belə bir şəraitdə Türkiyənin qətiyyətli, planlı və legitim addımları həm milli təhlükəsizliyin qorunması, həm də regional sabitliyin təmin olunması baxımından nümunəvi yanaşma kimi dəyərləndirilməlidir.

### Müdafiə maskası altında hücum planı

Suriyanın şimalında YPG tərəfindən həyata keçirilən genişmiqyaslı tunel və istehkam işləri artıq taktiki müdafiə tədbiri çərçivəsindən çıxaraq sistemli və uzunmüddətli hərbi doktrinaya çevrilib. Açıq mənbələrdən əldə olunan kəşfiyyat məlumatları göstərir ki, bu fəaliyyətlər nə spontan, nə də lokal xarakter daşıyır. Əksinə, burada ciddi mühəndislik işi, planlama və siyasi niyyətlərin vəhdəti müşahidə olunur. OSINT təhlilləri YPG-nin əsasən iki fərqli üsuldan istifadə etdiyini ortaya qoyur. Birinci üsul "üstünü bağla" metodu adlandırıla bilər. Bu metod xüsusilə Ayn əl-Ərəbin (Kobani) cənubundakı təpəlik ərazilərdə tətbiq olunur. Əvvəlcə geniş xəndəklər qazılır, daha sonra prefabrik beton bloklar yerləşdirilir və sonda bütün konstruksiya torpaqla örtülərək təbii relyef kimi maskalanır. Bu üsul yeraltı qərargahların və uzun tunel xətlərinin gizlədilməsi üçün istifadə olunur. İkinci üsul isə şəhər mərkəzlərində və yaşayış məntəqələrinin altında ağır tikinti texnikası ilə aparılan klassik yeraltı qazıntılardır. Tez-tez mediada gördüyümüz beton girişlər və çıxışlar məhz bu metodun nəticəsidir. Lakin YPG-nin əsas səhvi ondadır ki, yerin altına çəkilmək görünməz olmaq demək deyil. Peyk görüntüləri, torpaq yığınları və beton konstruksiyalar bu gizli yolları asanlıqla ifşa edir.



Tunel marşrutlarının təhlili daha təhlükəli bir məqamı üzə çıxarır. YPG tunelləri təkcə təpəliklər və yaşayış məntəqələri arasında deyil, qəsdən əsas avtomobil yollarının altından çəkir. Bunun açıq siyasi və hərbi məqsədi var. Bu tunellər zərərsizləşdirildiyi halda üstündəki asfaltın dağıdılması qaçılmazdır. Nəticədə nəqliyyat iflic olunur. Ardınca isə təşkilat dağıdılmış yolları kameraya çəkərək "mülki infrastruktura hücum" narrativi yaradır. Bu, klassik manipulyativ təbliğat mexanizmidir: əvvəl mülki ərazini hərbiləşdir, sonra onun vurulmasını humanitar fəlakət kimi təqdim et. Cərablus qarşısında, eləcə də yaşayış məntəqələri arasında "ilan kimi" uzanan tunel xətləri bu strategiyanın bariz nümunəsidir. Mülki yaşayış evləri faktiki olaraq hərbi obyektə çevrilib. Bu mərhələdə ən fundamental sual ortaya çıxır: YPG bu qədər geniş və bahalı infrastrukturu kimə qarşı qurur? Əgər iddia edildiyi kimi əsas hədəf İŞİD-dirsə, onda niyə cənub bölgələrində - İŞİD təhlükəsinin real olduğu ərazilərdə nə xəndək, nə tunel, nə də müdafiə xətti var? Əvəzində bütün silah lülələri, istehkamlar və kilometrlərlə uzanan tunellər Türkiyə sərhədinə yönəlib? Xəritə yalan danışmaz: Şəddadadan Qamışlıya, oradan Məlikiya və Rümeylan istiqamətinə qədər aparılan qazıntılar, üstəlik, ABŞ qüvvələrinin də fəaliyyət göstərdiyi zonalarda bu hazırlıqların aparılması YPG-nin siyasi deyil, hərbi həllə köklədiyini açıq göstərir.

### Mülki infrastrukturun qəsdən hədəf seçilməsi

### Tunel strategiyası niyə effektiv deyil?

YPG tunel əsaslı müdafiə doktrinasını xüsusilə son bir il ərzində Rakka xətti boyunca intensivləşdirib. Müxtəlif mənbələr 400 kilometrdən artıq yeni tunel qazıldığını iddia edir. Məqsəd aydındır: bölgədə hərbi dominantlığı qorumaq və neft gəlirlərini siyasi alətə çevirmək. Lakin əvvəlki hərbi əməliyyatların təcrübəsi - Afrin, Tel Abyad və Rasulayn açıq şəkildə göstərdi ki, bu strategiya xüsusilə düzənlik ərazilərdə effektiv deyil. Türkiyə silahlı qüvvələrinin yüksək texnologiyaya əsaslanan kəşfiyyat, hava üstünlüyü və koordinasiyalı əməliyyatları bu cür yeraltı strukturların real döyüş şəraitində dayanıqsız olduğunu sübuta yetirib.

### PKK-nın İraqdan Suriyaya transferi

Bölgədə dəyişən geosiyasi reallıqlar YPG-ni bu yeraltı strukturlara getdikcə daha çox möhtac qoyur. ABŞ-ın bölgədəki mövcudluğunun qeyri-müəyyənliyi və Suriyada normallaşma prosesləri təşkilatın manevr imkanlarını daraldır. Türkiyənin xarici işlər naziri Hakan Fidanın son açıqlamaları bu mənzərənin siyasi izahını verir. Ankara YPG-nin Suriya dövlətinə inteqrasiya olunmasını, yəni vahid ordu konsepsiyasını açıq şərt kimi irəli sürüb. Lakin əldə olunan siqnallar göstərir ki, təşkilat bu razılaşmaya əməl etmək niyyətində deyil və alternativ yollar axtarır. Peyklərdən aşkar edilən tunellər və xəndəklər bu imtinanın fiziki sübutudur. Hətta Şimali İraqda guya silahı yerə qoymuş şəxslərin Suriyaya keçərək YPG sıralarına qoşulması barədə məlumatlar vəziyyətin nə qədər ciddi olduğunu göstərir. YPG-nin tunel strategiyası müdafiə adı altında gizlədilən hücum hazırlığıdır. Bu strategiya nə regional sabitliyə, nə də siyasi həllə xidmət edir. Əksinə, mülki əraziləri hərbiləşdirərək yeni böhranlar üçün zəmin yaradır. Bu şəraitdə Türkiyənin mövqeyi bir daha özünü doğruldur. Ankara yer altında qurulan bu təhlükəli infrastrukturu vaxtında ifşa edir, siyasi şərtləri açıq qoyur və regionu daha böyük qarşıdurmadan qorumağa çalışır. Türkiyənin rasional, qətiyyətli və qabaqlayıcı siyasəti Yaxın Şərqdə təhlükəsizlik anlayışının ən real və məsuliyyətli modelidir.

Suriya Demokratik Qüvvələri (SDQ) ölkənin şimal-şərqində fəaliyyət göstərən, YPG-nin də daxil olduğu koalisiyadır. Son dövrlərdə PKK-nın Şimali İraqda silahları təhvil verməsi ilə bağlı yayılan məlumatlar ilk baxışdan normallaşma görüntüsü yaratsa da, faktiki vəziyyət bu addımların simvolik xarakter daşıdığını göstərir. Ayrı-ayrı fərdi təslimolmalar təşkilatın real hərbi-struktur gücünə təsir etmir və PKK-nın faktiki mövcudluğunu sona çatdırmır. Əksinə, əldə olunan kəşfiyyat məlumatları göstərir ki, PKK öz gələcəyini artıq İraqda yox, Suriyada görür.

### YPG-SDQ xəttində son mərhələ və Ankaranın qırmızı xətləri

Ərəb qəbilə mənbələrinin son hesabatlarına görə, təkcə ötən həftə ərzində PKK-nın iki mindən artıq üzvü Şimali İraqdan Suriyaya keçib. Bu, təşkilatın strateji istiqamət dəyişikliyinin açıq göstəricisidir. Seçim aydındır: inteqrasiya yox, möhkəmlənmə.

PKK/YPG xətti dövlətlə inteqrasiya deyil, ona qarşı möhkəmləndirilmiş paralel struktur yaratmaq yolunu seçib.

Halbuki Suriyanın gələcəyi ilə bağlı aparılan danışıqlarda əsas prinsip açıqdır: vahid komanda, vahid nəzarət, vahid ordu. Ankara bu mövqeyi dəfələrlə açıq şəkildə ifadə edib. Türkiyə vurğulayır ki, əgər bu silahlı struktur Suriya dövlətinə inteqrasiya olunmasa, hərbi variant masadan götürülməyəcək. Məhz bu səbəbdən YPG üçün ötən ilin sonuna qədər konkret vaxt çərçivəsi müəyyən edilmişdi. Ancaq Ankaradan sərt və qəti mesajlar gəldiyi bir vaxtda sərhədin o tayında - Həsəkədə tamamilə fərqli bir mənzərə formalaşdı. SDQ-nin (YPG) lideri Mazlum Abdi (əsl adı Fərhad Abdi Şahin) diqqəti yaxınlaşan böhrana çəkmək üçün bu dəfə İsrail mediasına üz tutub Jerusalem Post qəzetinin müxbirini qəbul etdi. Mazlum Abdi beynəlxalq mediada "demokratik lider", "qadın haqlarını dəstəkləyən komandir" kimi təqdim olunsa da, analitik və strateji baxışla onun fəaliyyəti PKK və separatçı strukturun rəhbərliyi kimi qiymətləndirilir. Bu müsahibə təşkilatın nə qədər sıxılmış vəziyyətdə olduğunu və hansı kartlardan istifadə etdiyini açıq şəkildə göstərir. Abdinin əsas "kozırı" yenə də eynidir: İŞİD məhbusları. O, Həsəkə, Rakka və Qamışlıdakı 26 həbs və saxlanma mərkəzində təxminən 10 min təhlükəli İŞİD üzvünün olduğunu xatırladaraq bildirir ki, ABŞ-ın maliyyə dəstəyini azaltmasından sonra nə büdcə, nə də insan resursu qalıb. Əl-Hol düşərgəsinin qorunmasının artıq mümkün olmadığını deyir. Bu, əslində Qərbə açıq mesajdır: "Əgər bizi maliyyələşdirməsəniz, bu insanlar nəzarətdən çıxacaq". Yəni Abdinin dili ilə terrorçular həm Qərbə, həm də Dəməşqə qarşı şantaj alətinə çevrilir.

### "100 minlik ordu" iddiası: reallıqdan uzaq rəqəmlər

Mazlum Abdinin "Şimal-şərqi Suriyada 100 minlik silahlı gücüm var" açıqlaması isə ciddi analitik süzgəcdən keçdikdə reallıqla uzlaşmır. Bu rəqəm təşkilatın özünü olduğundan böyük göstərmək cəhdidir. Abdi bu sayın içinə silahlı qəbilə üzvlərini, PKK-dan gələn terrorçuları, yerli təhlükəsizlik strukturlarını da qatıb, bunları vahid ordu kimi qələmə verməyə çalışır. Halbuki mövcud məlumatlara əsasən, YPG və SDQ-nin faktiki döyüşçü sayı 15-20 min aralığındadır. Daha geniş yanaşma ilə belə bu rəqəm 50-60 mini keçmir. Onların da yalnız 40-50 faizi real hərbi qüvvə sayıla bilər. Müqayisə üçün deyək ki, Dəməşq hökumətinin rəsmi strukturlarında 400-500 minlik potensial mövcuddur. Bu kontekstdə Abdinin 100 minlik ordu iddiası daha çox siyasi blef və psixoloji təzyiq alətidir. Əsl problem də burada başlayır. Abdi zahirdə "biz Müdafiə Nazirliyinin tərkibinə daxil ola bilərik" desə də, mahiyyət etibarilə öz strukturunu qorumaq istəyir. O, üç diviziya və iki xüsusi batalyonun olduğu kimi saxlanmasını tələb edir. Bu isə o deməkdir ki, ad dəyişə bilər, forma dəyişə bilər, lakin silah, komandanlıq və faktiki nəzarət olduğu kimi qalacaq. Ankara üçün bu, qəbuledilməzdir, vahid ordu anlayışı formal deyil, real məzmun daşımalıdır. Paralel silahlı struktur gələcək qarşıdurmanın toxumudur.

### YPJ kartı: Qərb auditoriyasına hesablanmış narrativ

YPJ (Yekineyen Parastina Jin - Qadın Müdafiə Dəstələri) YPG-nin qadınlardan ibarət silahlı qanadı, YPG/PKK strukturunun tərkib hissəsidir.

Mazlum Abdi xüsusilə YPJ - qadın batalyonları mövzusunu qabardaraq öz separatçı gündəmini "qadın haqları" pərdəsi altında gizlətməyə çalışır. Bu, Qərb ictimai rəyinə hesablanmış klassik manipulyasiya üsuludur. Lakin yeraltı tunellər, ağır silahlar və sərhədə yönəlmiş istehkamlar fonunda bu narrativ inandırıcılığını itirir. Faktlar göstərir ki, söhbət nə gender bərabərliyi, nə də yerli təhlükəsizlikdən - dövlət içində dövlət yaratmaq cəhdindən gedir. PKK-nın İraqdan Suriyaya transferi, YPG-nin tunel strategiyası və Mazlum Abdinin beynəlxalq mediaya verdiyi ziddiyyətli mesajlar bir mənzərəni tamamlayır: təşkilat siyasi inteqrasiyanı yox, silahlı qarşıdurmanı seçib. Bu şəraitdə Türkiyənin mövqeyi aydın, prinsipial və legitimdir: Ankara regionda qeyri-müəyyənliyə, paralel silahlı strukturlara və terrorun "yenidən brendinqinə" imkan vermək niyyətində deyil. Türkiyə masaya ya real inteqrasiyanı, ya da təhlükəsizliyi təmin edəcək addımları qoyur. Bu, təkcə Türkiyənin milli təhlükəsizliyi məsələsi deyil, Suriyanın gələcək dövlətçilik modeli və regionun sabitliyi üçün həlledici mövqedir.

### Türkiyənin prinsipial mövqeyi

Türkiyə xarici işlər naziri Hakan Fidanın açıqlamalarından və Mazlum Abdinin ziddiyyətli mesajlarından qısa müddət sonra Ankara mənbələrinin verdiyi açıqlama prosesin mahiyyətinə tam aydınlıq gətirdi. Türkiyə bu mövzuda heç bir qeyri-müəyyənliyə yer qoymur: YPG-nin mövcud strukturu ilə Suriya dövlətinə inteqrasiyası qəbuledilməzdir. Ankara təhlükəsizlik dairələrinin vurğuladığı əsas fikir sadə, lakin prinsipialdır: "Biz YPG komandirlərini Suriya dövlətinin uniformasında görmək istəmirik və bunu heç vaxt qəbul etməyəcəyik". Bu, Türkiyənin yanaşması ilə ABŞ tərəfindən irəli sürülən "inteqrasiya" modeli arasındakı fundamental fərqi göstərir.

ABŞ-ın təklif etdiyi model YPG-nin mövcud hərbi-siyasi strukturunu saxlayaraq onu formal şəkildə dövlət çərçivəsinə salmağı nəzərdə tutur. Yəni emblem dəyişə bilər, ad dəyişə bilər, lakin komandanlıq, silah və təşkilati yaddaş yerində qalır. Türkiyənin irəli sürdüyü model isə tam fərqlidir və dövlətçilik prinsipinə əsaslanır. Ankara deyir: təşkilat tam şəkildə buraxılmalı, silahlar təhvil verilməli, bütün simvollar və korpus məntiqi ləğv edilməlidir, yalnız bundan sonra fərdlər istəsələr, vətəndaş kimi Suriya ordusuna və ya siyasi sistemə qoşula bilərlər. Başqa sözlə, "mənim komandirim, mənim briqadam" dövrü bitməlidir. Tək struktur - dövlət qalır. Bu yanaşma Suriyanın gələcək sabitliyi üçün yeganə real və davamlı variantdır.

Hadisələrin hərbi müstəvidə kəskinləşməsi təsadüfi deyil. Türkiyənin açıqlamasından dərhal sonra türk hərbi kolonları Suriyaya daxil oldu, Suriya ordusu Deyr-əz-Zor - Rakka xəttinə doğru irəlilədi, YPG isə qüvvələrini həmin bölgəyə cəmlədi. Bu da təsadüf deyil, çünki Rakka və Deyr-əz-Zor əhalisinin 90 faizdən çoxu sünni ərəblərdən ibarətdir, lakin ölkənin əsas su ehtiyatları, ən münbit torpaqları, əsas neft yataqları məhz YPG-nin nəzarətindədir. Bu resurslar YPG üçün iqtisadi və siyasi güc rolunu oynayır. Dəməşq hökumətinin bir ildən çoxdur ölkənin birliyini bərpa etməyə çalışdığı bir vaxtda bu vəziyyət qəbuledilməzdir.

YPG Türkiyənin "fərdi inteqrasiya" modelini rədd edib yer altına çəkildikcə hərbi-siyasi təzyiq qaçılmaz olur. Lakin burada söhbət genişmiqyaslı total əməliyyatdan getmir. Masada olan əsas ssenarilər bunlardır:

* Tişrin su anbarının nəzarətə götürülməsi və M4 yolunda hərəkət üstünlüyünün təmin edilməsi;
* Sırrin aviabazasının ələ keçirilməsi ilə YPG ərazilərinin şərq-qərb əlaqəsinin kəsilməsi;
* Ayn əl-Ərəbin eyni vaxtda Rakka və Deyr-əz-Zor istiqamətlərindən mühasirəyə alınması.

Bu addımlar YPG-ni məhv etmək yox, inteqrasiyaya məcbur etmək məqsədi güdür. Türkiyə və Dəməşq üçün əsas hədəf zorla deyil, məcburiyyətlə siyasi nəticə əldə etməkdir. Bu mərhələdə genişmiqyaslı əməliyyat nə Dəməşqin, nə də Ankaranın marağındadır. Ankara "terrorsuz Türkiyə" prosesini riskə atmaq istəmir, Suriyanın bərpasını gecikdirəcək xaosdan qaçır, regional balansı qorumağa çalışır. Məhz bu səbəbdən Türkiyənin hərbi addımları ölçülüdür, mesajları isə açıq və sərtdir. Dekabrın 7-də Afrin, Rasulayn və Hələb istiqamətlərindən, dekabrın 9-da isə əlavə konvoyun Suriyaya daxil olması sırf logistika və rotasiya kimi təqdim olunsa da, bu hərəkətlər operativ gözləntilər yaradan strateji siqnallardır.

### ABŞ modeli və Türkiyə modeli: iki fərqli yanaşma

YPG üçün vaxt daralır. Tunellər, beton istehkamlar və gecikdirmə taktikası siyasi reallığı dəyişmir. Qarşıda iki yol qalır: ya Türkiyənin irəli sürdüyü fərdi və real inteqrasiya, ya da mərhələli, məhdud, lakin təsirli hərbi təzyiq. Türkiyə bu prosesdə nə tələsir, nə də geri çəkilir. Ankara regional sabitliyi qoruyan, dövlətçiliyi əsas götürən və terrorun maska dəyişməsinə imkan verməyən yeganə rasional güc kimi çıxış edir. Bu isə Yaxın Şərqdə nadir hallarda rast gəlinən məsuliyyətli liderlik modelidir.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN






# Qrip sürətlə yayılır...

## Distant təhsilə ehtiyac var?

Son vaxtlar mövsümi qrip infeksiyasının sürətlə yayılması cəmiyyətdə narahatlıq doğurub. Xüsusilə, payız-qış aylarında bu tip xəstəliklərin artması adi hal sayılsa da, yoluxma hallarının kəskin çoxalması məsələyə daha ciddi yanaşmağı zəruri edir. Ən çox müzakirə olunan mövzulardan biri isə yoluxma artacağı təqdirdə məktəblərin onlayn təhsilə keçib-keçməyəcəyidir.

Maraqlıdır, yoluxma halları artacağı təqdirdə məktəblərin distant təhsilə keçməsi mümkün ola bilərmi?

### Valideynlərin narahatlığı başadüşüləndir

Mövzu ilə bağlı “Yeni Azərbaycan”a açıqlama verən təhsil eksperti Elçin Əfəndi bildirib ki, məktəblər cəmiyyətin ən həssas məkanlarından biridir. Minlərlə şagirdin qapalı məkanda uzun müddət bir yerdə olması virusların sürətlə yayılması üçün əlverişli şərait yaradır: “Uşaqların immun sisteminin böyüklərlə müqayisədə daha zəif olması, həmçinin gigiyena qaydalarına hər zaman ciddi əməl edilməməsi riski daha da artırır. Bu baxımdan valideynlərin narahatlığı başadüşüləndir, heç kim övladının sağlamlığının təhlükə altına atmaq istəmir. Lakin hazırda müşahidə olunan vəziyyət mövsümi xarakter daşıyır və hər il dekabr-yanvar aylarında oxşar hallar qeydə alınır”.

### Distant təhsil son çarədir

Ekspertin sözlərinə görə, qripə yoluxma faktları dərslərin distant formada təşkilini avtomatik gündəmə gətirmir: “Belə hallara görə dərslərin onlayn formata keçirilməsi yalnız hansısa ərazi üzrə kütləvi yoluxma aşkarlanarsa mümkündür. Bu zaman da bütün ölkə üzrə deyil, yalnız lokal xarakterli, bir neçə günlük tədbirlər görülə bilər.

Təbii ki, onlayn təhsilin təcrübəsi cəmiyyət üçün yeni deyil. Pandemiya dövründə tətbiq edilən məsafədən təhsil modeli həm müsbət, həm də mənfi cəhətləri ilə yadda qaldı. Bir tərəfdən, onlayn təhsil yoluxma riskini minimuma endirdi, tədrisin tamamilə dayanmasının qarşısını aldı. Digər tərəfdən isə texniki imkanların bərabər olmaması, internet problemləri, müəllim-şagird ünsiyyətinin zəifləməsi və dərs keyfiyyətinin aşağı düşməsi kimi ciddi problemlər ortaya çıxdı. Bu səbəbdən cəmiyyətin böyük hissəsi onlayn təhsilə yalnız son çarə kimi baxır”.

Ekspert qeyd edib ki, mövsümi qrip ciddi xəstəlik olsa da, genişmiqyaslı bağlanmalar üçün əsas sayılmır: “Daha çox fərdi qoruyucu tədbirlər, xəstə uşaqların müvəqqəti olaraq dərsdən kənarlaşdırılması, məktəblərdə gigiyena və profilaktik tədbirlərin gücləndirilməsi daha məntiqlidir. Valideynlər də diqqətli olmalıdırlar. Əgər övladlarında xəstəlik əlamətləri varsa, onları məktəbə göndərməsinlər. Bu, digər şagirdlərin yoluxmasının qarşısını almağa kömək edər”.

Qeyd edək ki, hazırda ölkə üzrə təhsil müəssisələrində dərslərin distant formada təşkili ilə bağlı rəsmi qərar yoxdur.

*Yeganə BAYRAMOVA*

# Rənglərin psixologiyası

Rənglər bizim ruh halımıza, davranışlarımıza və hətta qərarlarımıza təsir edir. Bəs sevdiyimiz rənglər bizim xarakterimiz haqqında nə deyə bilər?

Rənglərin psixologiyası insan davranışları və hissiyyatları üzərindəki təsirlərini öyrənən bir sahədir. Rənglərin seçimi, bəyənilməsi və onlara verilən reaksiyalar çox zaman şüuraltı səviyyədə baş verir və bizim haqqımızda çox şey deyə bilər.

**Qırmızı**

Qırmızı rəng enerji, həvəs və qüvvət simvoludur. Bu rəngi sevən insanlar adətən enerjik, həyat dolu və liderlik xüsusiyyətlərinə malik olurlar. Qırmızı rəngin seçimi həm də güclü emosional həyatın və tutqunun göstəricisi ola bilər.

**Mavi**

Mavi rəng səbr, sülh və sakitliyi təmsil edir. Bu rəngi sevən şəxslər adətən sadiq, etibarlı və məntiqli olurlar. Mavi, həmçinin yaradıcılıq və mənəvi dərinliyi simvolizə edə bilər.

**Yaşıl**

Yaşıl təbiətlə uyğunluğu və balansı simvolizə edir. Bu rəngi sevən insanlar adətən mühitə qayğı göstərən, dəyişikliyə uyğunlaşa bilən və harmoniyaya önəm verən şəxslərdir. Yaşıl rəng, həmçinin inkişaf və tərəqqinin rəmzi olaraq qəbul edilir.

**Sarı**

Sarı rəng optimizm, enerji və yaradıcılığın rəngidir. Bu rəngi sevən insanlar adətən ünsiyyətcil, enerjik və zəka sahibi olurlar. Sarı, həmçinin yenilikçilik və macəra sevgisinin göstəricisi ola bilər.

**Bənövşəyi**

Bənövşəyi rəng həssaslıq və lüksün simvolu kimi tanınır. Bu rəng dərin düşüncə və meditasiya ilə əlaqələndirilir, mənəvi inkişaf və özünüifadəni təşviq edən bir atmosfer yaradır. Bənövşəyi rəngi sevən insanlar əsasən yaradıcı, həssas və xeyirxah olurlar. Onlar, həmçinin öz daxili dünyalarına və lüks həyata dair məsələlərə dərin maraq göstərirlər.

**Çəhrayı**

Çəhrayı sevgi və estetika rəngidir. Bu rəng şəfqət, qayğıkeşlik və mərhəmət hisslərini gücləndirir. Çəhrayı rəngi sevən insanlar ümumiyyətlə dostcanlı, qayğıkeş və romantik olurlar. Onlar insanlarla güclü əlaqələr qurmağa meyllidirlər və ətrafdakılara qarşı dərin anlayışa sahib olurlar.

**Narıncı**

Narıncı rəng enerji və həyəcanın simvoludur. Bu rəng optimizm, əyləncə və macəra hisslərini özündə birləşdirir. Narıncı rəngi sevən insanlar əsasən sosiaal, canlı və həvəsli olurlar. Onlar yenilikçi fikirlərə və təcrübələrə açıqdırlar və həyatı dolu-dolu yaşamaq istəyirlər. Narıncı rəng eyni zamanda yaradıcılığı və özünəinamı artırmaq qabiliyyətinə malikdir.

**Ağ**

Ağ rəng saflıq və məsumluğun simvoludur. Bu rəng açıqlıq, səmimiyyət və sadəlik hisslərini özündə birləşdirir. Ağ rəngi sevən insanlar əsasən dürüst, optimist və mükəmməlliyə meylli olurlar. Onlar həyatda sadəlik və harmoniyanı arzulayırlar və çətinliklərlə üzləşdikdə belə ümidlərini qoruyub saxlamağa çalışırlar.

**Qara**

Qara rəng güc və avtoritetin rəmzidir. Bu rəng müstəqillik, qüvvət və ciddiyyəti ifadə edir. Qara rəngi sevən insanlar əsasən ciddi, özünəinamı yüksək və müstəqil olurlar. Onlar, həmçinin qərarlıdırlar və özlərini ifadə etmək üçün qətiyyətli yollar axtarırlar.

**Qəhvəyi**

Qəhvəyi rəng stabillik və etibarlılığın simvoludur. Bu rəng təbiətlə əlaqə və rahatlıq hissi yaradır. Qəhvəyi rəngi sevən insanlar



ümumiyyətlə praktik, etibarlı və sadiq olurlar. Onlar həyatın sadə zövqlərini qiymətləndirir və güvənli və sabit bir mühit yaratmağa çalışırlar.

**Boz**

Boz rəng neytrallıq və balansın simvoludur. Bu rəng mülayimlik, səssizlik və sabitliyi ifadə edir. Boz rəngi sevən insanlar əsasən müvazinətli, professional və ağıllı olurlar. Onlar qarışıq hisslərdən uzaq durmağı və obyektiv qalmağı üstün tuturlar. Boz rəng həm də müxtəlif rənglərlə asanlıqla birləşə bilər, bu da onu çoxyönlü və uyğunlaşan bir seçim halına gətirir.

Rəng seçimləri bizim şəxsi inkişafımızla da sıx əlaqədardır. Sevdiyimiz rənglər zamanla dəyişə bilər, bu da bizim iç dünyamızda baş verən dəyişiklikləri əks etdirə bilər. Məsələn, bir dövrdə qırmızı rəngə olan meyilimiz bizim daha aktiv və hədəflərimizə doğru irəliləmək istəyimizi göstərə bilər, halbuki digər bir dövrdə mavi rəngə olan meyilimiz sakitlik və daxili sülhə olan ehtiyacımızı əks etdirə bilər.

Rəng üstünlükləri şəxsiyyətlərarası münasibətlərdə də önəmli rol oynaya bilər. İnsanlar arasında rənglərə olan meyil fərqlilikləri, müxtəlif xarakter və davranış xüsusiyyətlərinin uyğunlaşmasını və ya ziddiyyətlərini göstərə bilər. Bu kontekstdə rəng üstünlükləri şəxslərin bir-birləri ilə necə əlaqə qurduqlarını və bir-birlərinə necə reaksiya verdiklərini daha yaxşı başa düşməyə yardımçı ola bilər.

**Rənglərin iş və karyera seçimlərindəki rolu**

Rənglər, həmçinin iş və karyera seçimlərimizdə də mühüm bir faktor ola bilər. Məsələn, yaradıcı sahələrdə işləyən insanlar sarı və ya qırmızı kimi daha canlı rənglərə meylli ola bilərlər, çünki bu rənglər yaradıcılıq və enerji ilə əlaqələndirilir. Digər tərəfdən, mavi və yaşıl kimi rənglərə meyil göstərən insanlar daha çox sakitlik və stabillik tələb edən peşələrdə uğur qazana bilərlər.

**Rənglər və sağlamlıq**

Rənglərin sağlamlığımız üzərində də müsbət və ya mənfi təsirləri ola bilər. Mavi və yaşıl kimi rənglər stresi azaltmaq və sakitləşdirmək qabiliyyətinə malikdir, halbuki qırmızı və sarı kimi canlı rənglər enerji səviyyəsini və motivasiyanı artıra bilər. Bu səbəbdən rəngləri seçərkən onların psixoloji və fiziki sağlamlığımız üzərindəki potensial təsirlərini nəzərə almaq mühümdür.

Rənglərin insan xarakteri və davranışları üzərindəki təsiri inkaredilməzdir. Sevdiyimiz rənglər bizim kim olduğumuzu, necə hiss etdiyimizi və hətta necə əlaqə qurduğumuzu əks etdirə bilər. Rənglərin bu qədər güclü olması onların həm şəxsi, həm də professional həyatımızda mühüm rol oynadığını göstərir. Rəng seçimlərimiz zamanla dəyişə bilər, lakin onların bizim həyatımızdakı əhəmiyyəti daim qalır. Rənglərə olan bu dərin bağlılıq və onların təsirləri bizim özümüzü və ətrafımızdakı dünyanı daha yaxşı anlamağımıza kömək edə bilər.

**Allah rəhmət eləsin!**

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsi müdirinin müavini Elvin Abdulqədirova əzizi

**XURMAYƏ SAADOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*İdman*

## “Azerbaijan Open” turnirinə 20-dən çox idmançı qatılacaq



Azərbaycanda ilk dəfə keçiriləcək dağ xizəyi üzrə beynəlxalq turnirə 20-dən çox idmançı qatılacaq.

Bunu “Report”a Azərbaycan Qış İdman Növləri Federasiyasının mətbuat katibi Orxan Bədəlov deyib.

Onun sözlərinə görə, yarış “Şahdağ” Turizm Mərkəzi və federasiyanın birgə təşkilatçılığı ilə baş tutacaq:

“Turnir üçün qeydiyyat prosesi bu gün bitir. Dünənə olan məlumata əsasən, 20-dən çox idmançı yarışa qatılacaq. İsveçrə, Macarıstan, Sloveniya, Səudiyyə Ərəbistanı, Böyük Britaniya, Özbəkistan və Honq-Konqdan olan xizəkçilər mübarizə aparacaqlar. Azərbaycanı isə Anastasiya Papatoma təmsil edəcək”.

Qeyd edək ki, “Azerbaijan Open” beynəlxalq dağ xizəyi turniri yanvarın 8-11-i aralığında keçiriləcək.

## E.Əzizli dünya çempionatından sonra karyerasını bitirəcək



Azərbaycanın məşhur yunan-Roma güləşçisi Eldəniz Əzizli (55 kq) bu il keçiriləcək dünya çempionatından sonra karyerasını başa vuracaq.

Bu barədə “Report”a 33 yaşlı idmançının özü məlumat verib.

O, karyerası ilə bağlı qərar qəbul etdiyini vurğulayıb:

“Bu il də güləşə davam edəcəyəm. Böyük ehtimalla Avropa çempionatında iştirak etməyəcəyəm. Ancaq ilin sonunda, karyeram üçün önəmli olan dünya çempionatına qatılacağam və həmin yarışdan sonra karyeramı bitirəcəyəm”.

Qeyd edək ki, Eldəniz Əzizli 4 qat dünya və 2 qat Avropa çempionudur.

Bu il güləş üzrə dünya çempionatı 24 oktyabr - 1 noyabr aralığında Bəhreynin paytaxtı Manamada keçiriləcək. Avropa çempionatı isə aprelin 20-dən 26-dək Albaniyanın paytaxtı Tiranada təşkil olunacaq.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 3982
Sifariş: 09
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova